Azərbaycanda cinayətkarlığın azalması kimləri narahat edir?

Hürriyyət
SİZİN ÜÇÜN QƏZET
№03 (3342) 21 Yanvar / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qәpik

ANA XƏBƏR



## Sədr müavininin evindən 244 minlik qızıl oğurlandı

# Putin Azərbaycana "hücum" əmri verib?

## Marina Axmedova "kimin dili ilə" danışaraq, rəsmi Bakıdan üzrxahlıq tələb edir?!



8-9

GÜNÜN NƏBZİ

Layihə

### "Narkotik ticarəti ilə bağlı qanunvericiliyi sərtləşdirmək lazımdır"



Elşad Musayev: "Narkotiklərə qarşı mübarizə həyatın bütün sahələrini əhatə etməlidir"

3

Xəbər

### 35 ildir cəzasız qalan bəşəri cinayət

ADP 20 Yanvar faicəsi ilə bağlı bəyanat yaydı

2

Xəbər

### İranda həbsdə olan Fərid Səfərli Azərbaycana qaytarıldı

Dövlət Təhlükəsizliyi Xidməti və Xarici İşlər Nazirliyi birgə məlumat yaydı

2

Şəhid

### Qəhrəmanlar unudulmur

Azərbaycanın Milli Qəhrəmanı, jurnalist Salatın Əsgərovanın anım günü qeyd olundu

11

Yazar

### Tarixin qayıdışı: facialər və dəhşətlər

(Telman Orucovun yaradıcılığı haqqında düşüncələrim)

14

Şikayət

### "Məni ləkələyərək, işdən azad etdilər"

Hərbi hissədəki yeyinti faktlarını açıqladı, "dəlixana"ya göndərmək istədilər



7

Söhbət

### Psixoloji travmanın səbəbləri

Mirşahin Əlizadə: "İnanclarımız travmalardan daha çox həyatımıza təsir edir"



5

Hekayə

## Artıq adam

Xəstəxananın həyətinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa "yazıq oğlum nə gün gördü ki?" deyə süni şəkildə ağlamısındı. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz insanlar belə, asanlıqla sezərdi. Xəstəxananın həyətinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa "yazıq oğlum nə gün gördü ki?" deyə süni şəkildə ağlamısındı.

13

Cəmiyyət

## Zibilə düşmüşük...

Bu qədər laqeyidlik, bunca biganəlik, etinasızlıq və bunca siniklik nədən yarandı, bu zibil toxumunu həyatımıza kim və ya kimlər səpdi, görən?..

Bu gün gördüyüm dəhşətli bir səhnə sarsıtdı məni...
İki nəfər həyətimizdəki zibilxanada "razborka" aparırdı.
- Kazyol, baa, axırıncı dəfə deyirəm: bir də mənim yeşiyimə burnuvu soxsan başıvı parttadacam!
- Xoroşo, bratuxa... onda, sən də mənim konteynerimi eşələmə...
Bu günü də gördük, İlahi! Sən demə, zibilxanalarda hər yeşiyin öz "yiyəsi" varmış...(!?).
...Bu artıq, nə vəssəlamdı, nə də ki, şüttəmam...

4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№03 (3342) 21 Yanvar / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Melaniya Trampı digər birinci xanımlardan fərqləndirən 10 fakt



**Melaniya Tramp ABŞ-ın 45-ci və 47-ci prezidenti Donald Trampın həyat yoldaşıdır. Amerikanın yeni birinci xanımı haqqında maraqlı faktları təqdim edirik.**

Çoxsaylı Qərb nəşrləri yazır ki, Melaniya ABŞ-ın heç bir birinci xanımı kimi deyil. Bunun niyə belə olduğuna daha ətraflı nəzər salaq.

Melaniya sələflərindən qat-qat özəldir və vaxtının çox hissəsini diqqət mərkəzindən kənarda keçirir, lakin o, bir sıra qalmaqallarda da iştirak edib.

**1.** O, Amerika tarixində ABŞ-ın hüdudlarından kənarda, Sloveniyada doğulmuş ikinci birinci xanımdır. Xaricdə doğulmuş yeganə birinci xanım İngiltərədə anadan olan ABŞ-ın altıncı prezidenti Con Kuinci Adamsın həyat yoldaşı Luiza Ketrin Conson idi.

**2.** Doğma sloven dilindən əlavə o, başqa beş dildə də sərbəst danışır: ingilis, alman, fransız, italyan və serb-xorvat. "Scmp.com"un məlumatına görə, Melaniya Tramp əsl poliqlotdur.

**3.** Onun böyüdüyü kiçik Sevnitsa şəhərində çoxlarının pulu çatmasa da, Melaniya Knavsı (qızlıq soyadı) tanıyanlar onun həmişə çox ağıllı olduğunu və heç vaxt mağazadan paltar alıb geyinmədiyini deyirlər. Bu gün Melaniya Tramp öz üslubuna çox vaxt ayırır və onun görünüşü həmişə qüsursuzdur.



**4.** Donald Tramp daha əvvəl 1992-ci ilə qədər İvana Trampla, 1999-cu ilə qədər isə Marle Meyplz ilə evli olub. Melaniya onun üçüncü arvadıdır və Trampın üç arvadı arasında yeganə birinci xanım olub.

**5.** Melaniya həm də ABŞ-ın ana dili ingilis dili olmayan yeganə birinci xanımdır.

**6.** O, Lyublyana Universitetində Memarlıq və Dizayn fakültəsində təhsil alıb, lakin birinci kursdan sonra təhsilini yarımçıq qoyub Milana köçüb. 16 yaşında Melaniya Knavs modellik karyerasına başlayıb. O, Milanda və Parisdə şoularda gəzir və çox uğurlu model olub. Onun fotosessiyaları Sports Illustrated, Vanity Fair, Vogue, Harper's Bazaar və GQ jurnallarında dərc olunub. O, həmçinin 2000-ci ildə British GQ üçün çəkiliş də daxil olmaqla jurnallar üçün çılpaq pozalar verən yeganə birinci xanımdır.

**7.** Melaniya həm də Amerikanın ən uzun boylu birinci xanımlarından biridir (boyu 180 santimetrdir). O, ən uzun boylu birinci xanım titulunu Mişel Obama və Eleanor Ruzveltlə bölüşür.

**8.** Melaniya Tramp katolik olan ikinci birinci xanımdır - birincisi Jaklin Kennedi idi.

**9.** Digər birinci xanımlardan fərqli olaraq, Melaniya Tramp Ağ evə köçməyi ərinin birinci prezidentliyində beş aya qədər gecikdirib. Buna səbəb onların oğlu Berronun Nyu-Yorkdakı məktəbdə beşinci sinfi bitirmək üzrə olması idi. Donald Tramp artıq ikinci dəfə ABŞ prezidenti olanda bu dəfə nə olacağını zaman göstərəcək.

**10.** Melaniya Trampın, ümumiyyətlə, Ağ evdə yaşamadığı ilə bağlı çoxlu söz-söhbətlər və sui-qəsd nəzəriyyələri var. Ağ evin bəzi köməkçilərinə görə, Tramplar birlikdə çox az vaxt keçirirlər və ya heç vaxt keçirmirlər, ayrı yataq otaqlarında yatırlar və fərqli qrafiklərlə yaşayırlar. Həyat yoldaşları, əlbəttə ki, bu barədə heç bir şərh verməyiblər.



# Trampın andiçməsində zibil maşını...

**ABŞ-ın 47-ci prezidenti Donald Tramp Kapitoli binasında keçiriləcək mərasimlə rəsmi olaraq vəzifəsinin icrasına başlayacaq.**

Mərasim Bakı vaxtı ilə saat 21:00-da başlayacaq və ABŞ-ın xəbər kanallarında yayımlanacaq.

Bildirilib ki, hava şəraiti ilə əlaqədar olaraq Tramp mərasimin Kapitoli binasının daxilində keçirilməsi barədə göstəriş verib. Hazırda binanın içində hazırlıqlar davam edir. Binanın xaricində isə üç metrlik hasarlar və 48 kilometr uzunluğunda müvəqqəti baryerlər quraşdırılıb.



Mərasimdən əvvəl Donald Tramp keçmiş prezident Co Bayden və ailəsi ilə ənənəvi çay mərasimində iştirak edəcək. Bu, hakimiyyətin dinc yolla ötürülməsini rəmzi olaraq əks etdirir.

Mərasim zamanı Trampın seçki kampaniyasında istifadə etdiyi məşhur zibil maşını da nümayiş etdiriləcək.

## Əyləncə səhifəsi

# 154 kiloluq ana oğlunun üstündə oturub öldürdü

**ABŞ-da ana övladlığa götürdüyü uşağın üstündə oturaraq, onu öldürüb. Bu barədə məlumatı ABŞ-ın "The Mirror" nəşri yayıb.**

Qeyd olunur ki, hadisə İndiana ştatında keçən il baş versə də, 49 yaşlı qadın Cennifer Li Uilson indi məhkum edilib. Hüquq-mühafizə orqanları Porter qraflığında 10 yaşlı uşağın nəfəs almadığını və nəbzinin vurmadığını aşkar ediblər.



Zərərçəkmiş xəstəxanaya çatdırılsa da, onu xilas etmək mümkün olmayıb. Mütəxəssislər onun döş qəfəsinin aşağı hissəsində bir neçə qançır, qaraciyər və ağciyərlərində qanaxma aşkar ediblər. Mütəxəssislər hadisənin səbəbini beyin ödemi adlandırıblar.

Ana bildirib ki, övladlığa götürdüyü oğlu həmin gün özünü pis aparaaraq evi tərk edib. Uilson onun arxasınca gedib və onun bir qadınla danışdığını görüb. O bildirib ki, oğlan həmin qadından polisə müraciət etməsini istəyib. Lakin ana qonşu qadına "öz işinə baxmasını" bildirib.

Bu zaman uşaq yıxılıb və Uilson onun üstünə oturub. Qeyd olunur ki, qadının çəkisi 154 kiloqram, uşağın çəkisi 40 kiloqram olub. Məktəbli müqavimət göstərsə də sonradan dayanıb. Amerikalı qadının dediyi kimi, o, oğlanın yalandan sakit dayandığını düşünüb və təxminən beş dəqiqə onun üstündə oturub.

Məhkəmə qadını təqsirli bilib və 6 il müddətinə azadlıqdan məhrum edib.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# İranda həbsdə olan Fərid Səfərli Azərbaycana qaytarıldı

## Dövlət Təhlükəsizliyi Xidməti və Xarici İşlər Nazirliyi birgə məlumat yaydı

**İranda həbsdə olan Fərid Səfərli Azərbaycana qaytarılıb. Bu barədə Dövlət Təhlükəsizliyi Xidməti və Xarici İşlər Nazirliyi birgə mətbuat məlumatı yayıb.**



Məlumatda bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşı, 2023-cü ildə İran İslam Respublikasında saxlanılmış Səfərli Fərid Qabil oğlu beynəlxalq hüquqi əməkdaşlıq və qarşılıqlı prosedur çərçivəsində 18.01.2025-ci il tarixində İran İslam Respublikasından təhvil alınaraq ölkəmizə qaytarılıb.

Fərid Səfərli tibbi müayinədən keçdikdən sonra ailəsinə qovuşub.

Azərbaycan Respublikasının vətəndaşlarının ölkə hüdudlarından kənarda hüquq və mənafelərinin qorunması istiqamətində zəruri tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək.

Qeyd edək ki, Almaniyanın Yena Universitetinin azərbaycanlı tələbəsi, 27 yaşlı Fərid Səfərli 2023-cü il fevralın 20-də eyni universitetdə təcrübə keçmiş həkim sevgilisini görmək üçün Tehran şəhərinə gedib.

F. Səfərli martın 5-də Almaniyaya qayıtmalı olsa da, geri qayıtmayıb. Martın 4-dən etibarən Fəridin telefonu sönüb, onunla əlaqə tamamilə itib.

Daha sonra ona İranın rəsmi qurumları tərəfindən casusluq ittihamı irəli sürüldüyü məlum olub.

19 iyul 2023-cü il tarixində keçirilmiş məhkəmə iclası zamanı Fərid Səfərliyə qarşı irəli sürülmüş "casusluq" ittihamı "casusluq etmək niyyəti" ittihamı ilə əvəz olunub.

Məhkəmənin hökmü ilə o, 2 il yarım müddətinə azadlıqdan məhrum edilib.

# 35 ildir cəzasız qalan başəri cinayət

## ADP 20 Yanvar faicəsi ilə bağlı bəyanat yaydı

**Dünən ADP 20 Yanvar hadisəsinin 35-ci il dönümü ilə bağlı bəyanat qəbul edib. Bəyanatda deyilir:**

35 il bundan öncə yanvarın 19-dan 20-nə keçən gecə baş verənlər xalqımızın həm faciəsini, həm də misilsiz qəhrəmanlığını özündə birləşdirən, keçmiş sovetlər imperiyasının bütün mənəvi və sosial dayaqlarının itirilməsinə, nəticə etibarı ilə daha tez dağılmasına və xalqımızın sonrakı taleyinə əhəmiyyətli dərəcədə təsir göstərən tarixi bir hadisədir. 1990-cı ilin 20 Yanvar hadisəsi 1987-ci ilin sonlarından başlayaraq azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti deportasiyası və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə qarşı xalqımızın etirazını və mübarizəsini boğmaq cəhdi idi.




**Partiya bu faciəni törədənlərin təşkilatçılarının və iştirakçılarının bu günə kimi cəzasız qalmasından təəssüfləndiyini və dərin narahatlıq keçirdiyini bildirir**

20 Yanvar hadisələri zamanı yüzlərlə soydaşımızın kütləvi şəkildə qətlə yetirilməsi, yaralanması, repressiyalara məruz qalması və əmlaklarının dağıdılması əli qanlı Rus imperiyasının xalqımızın azadlıq və müstəqillik uğrunda başlatdığı xalq hərəkatını beşiyində boğmaq məqsədilə həyata keçirdiyi başəri cinayətdir. Baş vermiş qətliam onu törədənlərin əsl mənəvi, əxlaqi, mədəni simasını, bəşəri dəyərlərdən və çağdaş sivil dünyadan nə qədər uzaqda olduqlarını tam çılpaqlığı ilə ortaya qoymuş oldu.

ADP Azərbaycan xalqının azadlıq uğrunda başlatdığı mübarizəyə yönəlmiş bu qəsdi lənətləyərək, 20 Yanvar hadisələrindən 35 il ötməsinə baxmayaraq, bu cinayətə hələ də dünya ictimaiyyəti və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən əsl siyasi və hüquqi qiymət verilmədiyindən, bu başəri cinayəti törədənlərin təşkilatçılarının və iştirakçılarının bu günə kimi cəzasız qalmasından təəssüfləndiyini və dərin narahatlıq keçirdiyini bildirir.

ADP 20 Yanvar hadisəsinin milli yaddaşa həkk olunması istiqamətində təbliğatın daha da gücləndirilməsinin vacibliyini, 20 Yanvar cinayətini, 26 fevral Xocalı və 31 Mart soyqırımını dünya ictimaiyyətinə çatdırılması üçün daha geniş dövlət tədbirlərinin, bu tədbirlərin yalnız təqvimdən təqvimə deyil, ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb və hakimiyyəti dünya dövlətlərinin bu hadisələrə hüquqi və siyasi qiymət verməleri üçün səylərini artırmağa çağırıb.

ADP 25 dekabr 2024-cü il tarixdə Bakı-Qroznı reysini həyata keçirən Azərbaycana məxsus sərnişin təyyarəsinin Qroznıda Rusiyanın "Pantsir-S" Hava Hücumundan Müdafiə sisteminin hücumuna məruz qalmasını, təyyarənin vurulmasından sonra onun Qroznı ərazisinə enməsinin qarşısının alınması və nəticədə Aktau limanına kurs götürən təyyarəmizin həmin ərazidə qəzaya uğraması nəticəsində xeyli sayda sərnişinin həlak olması faktı da Rusiyanın xalqımıza qarşı planladığı bəşəri cinayətlər sırasına daxil edilməlidir.

ADP bu gün Rusiyanın Ukraynaya qarşı apardığı işğalçılıq siyasətini də Rusiyanın başqa xalqlara qarşı genosid siyasəti kimi dəyərləndirir, vaxtında bu tipli hadisələrə ciddi hüquqi qiymət verilmədiyindən müasir dövrdə də bu qanlı cinayətlərin təkrarlandığını bildirir və bütün dünya ictimaiyyətini Azərbaycan xalqına qarşı Rus imperiyası tərəfindən törədilən qanlı cinayətlərə siyasi və hüquqi qiymət verməyə çağırır.

ADP xalqımızı 20 Yanvar hadisələrini heç vaxt unutmamağa, gələcək nəsillərimizin bu tipli faciələrlə üzləşməməsi üçün 20 Yanvar tarixini xalqımızın gen yaddaşına daşımağa, Rusiyanın hal-hazırda da ərazi bütövlüyümüzə və suverenliyimiə təhdid yaratdığı bir zamanda daim ayıq-sayıq olmağa, milli həmrəyliyimizi qoruyub saxlamağa, bu hadisələrin mahiyyətini dünya xalqlarına çatdırılmasında xalqımızın bütün imkanlarını birləşdirməyə çağırıb.

ADP 20 Yanvar hadisələri zamanı həlak olmuş soydaşlarımızın əziz xatirəsi qarşısında bir daha baş əydiyini, onların yaxınlarına və əzizlərinə Allahdan səbr dilədiyini bildirir.

**KƏNAN**

# Sədr müavininin evindən 244 minlik qızıl oğurlanıb

Vəzifəli şəxsin evindən külli miqdarda oğurluqda təqsirləndirilən Məmmədova Ruhiyyə İdris qızının məhkəmə prosesinin hazırlıq iclası keçirilib.

Lent.az xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Telman Hüseynovun sədrliyi ilə keçirilən prosesdə ilk olaraq "polis nəzarəti altına vermə" qətimkan tədbiri seçilən Ruhiyyə Məmmədovanın anket məlumatları dəqiqləşdirilib.

Məlum olub ki, R. Məmmədova əvvəllərdə oğurluq əməlinə görə məhkumluq həyatı yaşayıb. 3 övladı var, evdar xanımdır.

Cinayət işində zərərçəkən qismində tanınan Əmir Şirinbəyli hazırlıq iclasında iştirak etməyib.

Anket məlumatlarına görə, Ə. Şirinbəyli



Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) katibliyinin sədr müavini vəzifəsində çalışır.

Hakim Telman Hüseynov anket məlumatlarını dəqiqləşdirdikdən sonra cinayət işinin məhkəmə baxışına verilməsi ilə bağlı tərəflərin fikirlərini öyrənib.

Dövlət ittihamçısı Valeh Ələkbərov işin məhkəmə baxışına verilməsi və təqsirləndirilən şəxs barəsində qətimkan tədbirinin dəyişdirilməməsi ilə bağlı təklif irəli sürüb.

Hakim korpusu müşavirə otağından qayıtdıqdan sonra qərarı elan edib.

İttiham aktına görə, Ruhiyyə Məmmədova Əmir Şirinbəylinin evindən 244 min manatlıq qızıl-zinət əşyaları oğurlamaqda təqsirli bilinir.

Qeyd edək ki, təqsirləndirilən şəxs Ruhiyyə Məmmədova baş vermiş cinayət əməlində özünü təqsirli bilib.

Məhkəmə prosesi 31 yanvar tarixinə kimi təxirə salınıb.

"Evlər, binalar tikirik, amma onun içində bir stadion tikmək yadımızdan çıxır. Biz gənclərin asudə vaxtını təşkil etmək haqqında fikirləşməliyik. Məsələn, xarici ölkələrdə "book-caf?"lər-kitab kafeləri olur, bu əsasən yeni nəsil üçün, gənclər üçündür. Biz bu gəncləri narkotikə bulaşdırmamaq üçün alternativ variantlar fikirləşməliyik"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İctimai və dövlət maraqlarının müdafiəsi**

# "Narkotik ticarəti ilə bağlı qanunvericiliyi sərtləşdirmək lazımdır"

## Elşad Musayev: "Narkotiklərə qarşı mübarizə həyatın bütün sahələrini əhatə etməlidir"

"Bizim Konstitusiyada narkotiklərə qarşı sərt cəzalar nəzərdə tutulub. Hesab edirəm ki, indiki vəziyyətdə onları daha da sərtləşdirmək lazımdır..."



**Xəbər verdiyimiz kimi, 2025-ci ilin ilk günlərində Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev narkoticarətlə bağlı parlamentin qəbul etdiyi sərt qanunu imzaladı. Yeni qanuna əsasən, narkotik vasitələrin istehsalı və satışı ilə məşğul olan şəxslər ömürlük həbsə məhkum ediləcəklər. Belə ki, artıq bu cinayətlərə görə təqsirkarlar, o cümlədən də məmurlar 15 ildən 20 ilədək müddətə azadlıqdan məhrumetmə və ya əmlakı müsadirə olunmaqla, ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum oluna bilərlər.**

Dəfələrlə qeyd etdiyimiz kimi, əslində, bizim ölkədə də narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı bu cür qanunun qəbuluna ehtiyac var. Xüsusilə də "ağ ölüm" ticarətində əli olan, yaxud himayədar qismində çıxış edən məmurlara qarşı. Çünki milyonların həyatını "qara günə" qoyanlar üçün bir neçə illik azadlıqdan məhrumetmə cəzası çox yüngüldür. Odur ki, mövzunu millət vəkili Elşad Musayevlə müsahibəmizdə davam etdirdik.

***- Qazaxıstanda narkotik cinayətlərinə (narkotik vasitələrin istehsalı və satışı) görə saxlanılan şəxslər, o cümlədən məmurlar, minimum 15-20 ildən başlayaraq ömürlük həbsə məhkum ediləcək. Həbslə yanaşı, onların əmlakı müsadirə olunmaqla, ömürlük azadlıqdan məhrumetmə cəzası da nəzərdə tutulur. Sizcə, Azərbaycanda da analoji qanun qəbul etməyə zərurət varmı?***

- Ümumiyyətlə, narkotiklərə qarşı mübarizə dünyanın hər yerində gedir və çox ciddi qəbul olunur. Qazaxıstan da bu üsuldan istifadə edir. Bizə yaxın türk cümhuriyyətlərindən biridir. Azərbaycanın özündə də narkotiklərə qarşı mübarizə ilə bağlı müvafiq qanunvericilik var. Onu daha da sərtləşdirmək olar. Bizim Konstitusiyada narkotiklərə qarşı sərt cəzalar nəzərdə tutulub. Hesab edirəm ki, indiki vəziyyətdə onları daha da sərtləşdirmək lazımdır.

***- Qazaxıstanla müqayisədə Azərbaycan narkotikdən daha çox zərər çəkən ölkədir. Burada ən azı İran faktorunu nəzərə almaq lazımdır. Üstəlik, ölkədə narkomanların və narkoticarətin əhatə dairəsi günbəgün genişlənir. Belə bir vəziyyətdə məsələnin həll yolunu necə görürsünüz?***

- Qazaxıstanın özünə də Əfqanıstandan narkotik gəlir. Onun da öz problemləri var. Amma, ümumiyyətlə, narkotik ciddi bəladır. Və Azərbaycanda da, Qazaxıstanda da, digər ölkələrdə də bu, getdikcə artır. Dünyanın hər yerində bu bəla çoxalır. Ona görə, buna qarşı cəzanı da sərtləşdirmək lazımdır. Eyni zamanda, səbəbləri araşdırıb, onları aradan qaldırmaq lazımdır.

***- Konkret olaraq bizim ölkədə çıxış yolunu necə görürsünüz?***

- Narkomaniyanı yaradan səbəblər var, o səbəbləri aradan götürmək lazımdır. Bunu yaradan səbəblərdən biri odur ki, kənardan müdaxilə var. Məsələn, İrandan bir çox cəhdlər var ki, Azərbaycanda bu sahəni inkişaf etdirsinlər.

İkinci tərəfdən də, biz evlər, binalar tikirik, amma onun içində bir stadion tikmək yadımızdan çıxır. Biz gənclərin asudə vaxtını təşkil etmək haqqında fikirləşməliyik. Məsələn, xarici ölkələrdə "book-caf?"lər-kitab kafeləri olur, bu əsasən yeni nəsil üçün, gənclər üçündür. Biz bu gəncləri narkotikə bulaşdırmamaq üçün alternativ variantlar fikirləşməliyik. Efirlərdə təbliğat aparılmalıdır. KİV-də işləyən adamsınız, sizlərdən çox şey asılıdır. İstər televiziyalar, istər digər media vasitələri olsun. Məsələn, TikTok-da söyüş söyən bir nəfəri götürüb efirə verirsənsə və yaxud onun haqqında bir yazı verirsənsə, deməli, onlardan bir qəhrəman düzəldirsən. Bu, bir misaldır. Bu, mediadan çıxarılmalıdır. Ona görə, bu problemin həlli üçün həm qanunvericilik sahəsində ciddi tədbirlər görülməlidir, həm də bu məsələnin təbliğat sahəsi işlənilməlidir. Həmçinin, belə halların baş verməməsi üçün müvafiq şərait yaradılmalıdır. İlk növbədə gənclərin asudə vaxtı, gənclərin məşğulluğu üzərində işləmək lazımdır.

***- Hazırda həbsdə olan məhbusların böyük əksəriyyəti məhz narkotiklə əlaqədar cəza çəkənlərdir. Aparılan araşdırma göstərir ki, onlar ortalama 3-5 il cəza çəkib, azadlığa çıxır və yenidən eyni əməlləri törətməyə davam edirlər. Belə bir şəraitdə narkotik ticarət ilə mübarizə nə kimi effekt verə bilər?***

- Bütün hallarda dövlətin vəzifəsi, borcu narkotiklərə qarşı mübarizə aparmaqdır. Mən başa düşürəm, narkotik elə bir bəladır ki, ona bir dəfə bulaşan çox çətinliklə çıxır. Amma buna kompleks, yəni hərtərəfli yanaşmaq lazımdır. Müxtəlif tərəflərdən yanaşmaq lazımdır - uşaq vaxtından, orta məktəb dövründən, ailədən, böyüyəndən (həddi-buluğa çatandan), yeniyetməlik-gənclik çağından... Bütün bunlar ailənin, cəmiyyətin, dövlətin nəzarətində olmalıdır. Yeri gələndə ictimai qınaq olmalıdır. Yeri gələndə təbliğat, şərait olmalıdır. Yəni məsələyə belə yanaşma lazımdır.

"Narkotik elə bir bəladır ki, ona bir dəfə bulaşan çox çətinliklə çıxır. Amma buna kompleks, yəni hərtərəfli yanaşmaq lazımdır. Müxtəlif tərəflərdən yanaşmaq lazımdır - uşaq vaxtından, orta məktəb dövründən, ailədən, böyüyəndən (həddi-buluğa çatandan), yeniyetməlik-gənclik çağından... Bütün bunlar ailənin, cəmiyyətin, dövlətin nəzarətində olmalıdır. Yeri gələndə ictimai qınaq olmalıdır. Yeri gələndə təbliğat, şərait olmalıdır"

***- Yəni mübarizə həyatın bütün sahələrini əhatə etməlidir.***

- Əlbəttə, narkotiklərə qarşı mübarizə həyatın bütün sahələrini əhatə etməlidir. Eyni zamanda, insan həyatının bütün dövrünü əhatə etməlidir. Yenə deyirəm, sizlərdən, mediada olanlardan çox şey asılıdır. Siz yaxşı nümunəni göstərməlisiniz. Söyüş söyənlər var, adlarını çəkmirəm, onların adını ümumiyyətlə çəkməməlisiniz ki, bu filankəsdir. Görürsünüz, indi tülküyə dönüblər, qaçıb gizləniblər. O adamlara efir vermək olmaz. "Nəşənin tüstüsü dağlara yayılsın" deyən meyxanaçıya efir vermək olmaz. Və yaxud sizin saytda yer vermək olmaz. Bu, pis nümunədir. Yaxud cürbəcür pis şeyləri təbliğ edən adamlara efir vermək olmaz. Bir də görürsünüz, gənclər topa bir yerə yığılır, siqaret çəkməyənə məcburi siqaret çəkdirirlər. Odur ki, biz həm də gənclərin asudə vaxtını səmərəli təşkil etməliyik. Tək biz yox, dünyanın hər yerində belə olmalıdır.

**Ülviyyə ŞÜKÜROVA**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur**

**Bu gün gördüyüm dəhşətli bir səhnə sarsıtdı məni...**

**İki nəfər həyətimizdəki zibilxanada "razborka" aparırdı.**

**- Kazyol, baa, axırıncı dəfə deyirəm: bir də mənim yeşiyimə burnuvu soxsan başıvı parttadacam!**

**- Xoroşo, bratuxa... onda, sən də mənim konteynerimi eşələmə...**

**Bu günü də gördük, İlahi! Sən demə, zibilxanalarda hər yeşiyin öz "yiyəsi" varmış...(!?).**

**...Bu artıq, nə vəssəlamdı, nə də ki, şüttəmam. Bu, sonuncu, ümidlərin param-parça olduğu lap sonuncu "astanovkadı"...**

**Utandım. Öz adıma və hamının yerinə utandım!.. Yer yarılsaydı, bəlkə də yerə girərdim...**

**Məni qınamayın, elə bil, bizləri ovsunlayıblar, elə bil, bizlərə cadu-piti ediblər...**



Razılaşaq və etiraf edək ki, bizlər "huya" gedən, hər zada inanan, təzə nə tikəcəyimizi ölçüb-biçmədən köhnəni dib-dəhnədən dağıdan, nəhayət, güzgü qabağında dayanıb, sözümüzü "rastamoşkadan" keçirmədən atəşin monoloqlar söyləməyə meylli toplumuq...

# Zibilə düşmüşük...

## Bu qədər laqeyidlik, bunca biganəlik, etinasızlıq və bunca siniklik nədən yarandı, bu zibil toxumunu həyatımıza kim və ya kimlər səpdi, görən?..



Eldəniz QULİYEV

Haradasa, Nikaraquada, ya Somalidə, kimsə kiməsə şappadan bir şillə vurur... bunu əlüstü görürük. Ya ABŞ-da, Fransada kimlərsə kimlərəsə qarşı etiraz piketi keçirir, tələm-tələsik bunu gündəm eləyirik. Amma özümüzdə, gözümüzün önündəcə baş verən faciələri vecimizə də almırıq: "Əşşi, mənə nə, nəyimə lazımdı?" deyibən, yan keçirik. Elə bil, dünya həqiqətən beş günlükdü və tərs kimi, beşi də iş gününə düşür!.. Bu qədər laqeyidlik, bunca biganəlik, etinasızlıq və bunca siniklik nədən yarandı, bu zibil toxumunu həyatımıza kim və ya kimlər səpdi, görən?..

Bu qədər "ölümmü, qalımmı?" çeşidli problemlərlə əlbəyaxa olduğumuz bir zamanda, yalan və zir-zibil içində çabalamağa məhkum edildiyimiz bir məmləkətdə gönümüz nədən belə qalınlaşdı, İlahi, nədən belə arsızlaşdıq, dayazlaşdıq, mütrüfləşdik?.. Əgər "qəhrəmanlığımız", eləcə də, "vətən, xalq təəssübkeşliyimiz" çayxanalarda xosunlaşmaqdan, yaxud kompüter klaviaturasına barmaq döyəcləməkdən o yana keçmirsə... vay bizim halımıza!..

Əzizlərim, sonra - AzTV, ATV belə gəldi, REAL, SPASE belə getdi - deməyin ha!..

Əks-səda verməyən intəhasız düzənlikdə çığırıb-bağırmaqla deyil ki, - içimiz dolu deyilsə, ağrı-acımızı dilə gətirməyə, qanuni haqlarımızı tələb etməyə cəsarətimiz çatmırsa, göz yaşlarımızı maddiləşdirə bilmiriksə... cızma-qaralarımızın və zəvzəməyimizin bircə qəpiklik də mənası yoxdur...

Bəzən də özümüzü elə aparırıq ki, sanki hər yarağımız düzəlib, bircə qalıb saqqal darağımız!..

Elə bil, ömrümüzü-günümüzü göy əskiyə bükən iqtidar cənablarının qurub-qoşduqları problemlər burulğanında boğulan bizlər deyilik. Sanki artıq hər şey "o key"-di və bizlər də normal məmləkətlər kimi ədalətli, demokratik və azad seçkilər keçirmişik! Sanki total korrupsiya və rüşvətxorluq adlı bəd xassəli xəstəliyin başını əzmişik! Sanki insan haqları və azadlıqlarının göz-bəbəyi kimi qorunmasına nail olmuşuq! Guya, ölkədə ifadə azadlığını və demokratik dəyərləri tam şəkildə bərqərar etmişik, hələ üstəlik, vətəndaş cəmiyyəti quruculuğunu da müvəffəqiyyətlə başa vurmuşuq!.. Və sair və ilaxır!..

Bəli, əzizlərim, yəqin elə belədi ki, var!

Yəni belə olmasaydı, bütün bu taleyüklü məsələləri bir kənara qoyub bir-birimizlə didişməzdik ki!.. Belə olmasaydı, xalqın sözünü deyən, ağrı-acısının heykəlini yapan işıqlı insanların təqib olunmasına, təhqir və tənələrə tuş gəlməsinə bunca biganə qalmazdıq ki... Belə olmasaydı, ədalətli, ləyaqətli yaşam tərəfdarlarını müdafiə edərdik...

Burada kiçik (ya ortabab) bir haşiyə çıxmağa məcburam...

Razılaşaq və etiraf edək ki, bizlər "huya" gedən, hər zada inanan, təzə nə tikəcəyimizi ölçüb-biçmədən köhnəni dib-dəhnədən dağıdan, nəhayət, güzgü qabağında dayanıb, sözümüzü "rastamoşkadan" keçirmədən atəşin monoloqlar söyləməyə meylli toplumuq.

Bütün bunlar, bəlkə də millətimizin saflığından, milli-mənəvi dəyərlərə sadiqliyindın və əlbəttə ki, bir az da sadəlövhlüyündən irəli gəlir, - bilmirəm...

Amma fakt budur ki, bu gün müxalif qüvvələr, ilk növbədə özləri özləriylə, daha sonra iqtidarla "dartma, yaxam cırıldı" oyununa baş vurub. Iqtidar da boş oturmur, - guya, müxalifətlə ardıcıl və məqsədyönlü mübarizə aparır... Yəni iqtidar müəllim müxalifət bəyi döyür, söyür, tutur, sındırır, satın alır və s.



Müxalifət isə, cavab olaraq, qayıdıb söyür... və dübarə yenə də söyür, sonra yenə də söyür, söyür... Çünki onun, iqtidar müəllimdən fərqli olaraq, nə döyməyə, nə də sındırmağa, nə satın almağa, nə də tutub həbs eləməyə imkanı var. Güclərin balansı eyni deyil.

Əslində, bu gün hər iki tərəf eynək taxıb rinqə çıxmış həvəskar boksçuları xatırladır...

Ən qəribəsi, bəlkə də ən acınacaqlısı budur ki, tərəflərin ikisi də pontamima hərəkətləriylə əlbəyaxa vuruşa hazır olduqlarını nümayiş etdirirlər... Bəzən hətta, baş və şəhadət barmaqlarını tapança kimi tutub, bütün istiqamətlərdən - həm horizontal, həm vertikal, həm də çarpaz atəşlər açmaq etüdü göstərməkdən çəkinmirlər...

Xalq isə bu mütəqəlqəl vəziyyətə baxıb da dillənmir. Ağzına su alıb özü üçün qarqara eləyir və... müdrikcəsinə susur!..

Sədd heyif ki, reallıq, daha dəqiqi, zəhrimar kimi acı olan həqiqət məhz bundan ibarətdir. Və heç kim də durub demir ki: "Ay başınıza dönüm, siz bu qarmaqarışıqda çox ciddi və çox vacib bir məqamı unudursunuz: adamlar bir-birləri haqda danışmaqdansa, bir-biriylə danışmalıdı. Bu, daha düzgün, daha yaxşı və daha qısa yoldu!.." Bir qırışmal köpəyoğlu sinəsini qabağa verib dillənmir ki: "A bala, a millət, ay ağıl dəryaları, ta yorulduq, bezdik, ta bu andır nifrətdən əl çəkin! Nifrətdən heç vədə yaxşı bələdçi olmayıb, olmayacaq da!.."

...Düşünürəm ki, vəziyyət bu qədər ağrılı və bu qədər kədərli görünməsəydi, yəqin, çox gülməli olardı!..

...Elə bu sözləri yazırdım ki... həyətin zibil yeşikləri yerləşdirilən tərəfində səs-küy qopdu...

Deyəsən, vid-fasonlarından keçmiş ziyalıya oxşayan "bomj"lar, yenə də öz aralarında nəyisə bölüşə bilmirdilər!..

Servantesin vaxtilə dediyi "həyat - şahmat partiyasıdır" fikri həqiqətdirsə, onda hər bir adam bu partiyada oyunun taleyini həll edən yeganə qrossmeysterdir... Və hər bir adamın həyatının dəyəri öz partiyasını nə dərəcədə bacarıqla oynaması ilə ölçülə bilər.





Sərdar CƏLALOĞLU

# Həyatının qrossmeysteri

## (Çapay Sultanovun "Şahmat prizmasının içindən..." adlı kitabı haqda düşüncələr)

**XX əsrin əvvəllərindən başlayaraq, universal elm yenidən tarix səhnəsinə qayıdır. Bu elmin fərqi təcrübədə tam kimi təqdim olunan idrak obyektini eyni anda hərtərəfli, yəni müxtəlif elm sahələrinin vəhdətində öyrənməkdən ibarətdir. Universallıq dilimizdə müxtəlif cəhətli, hərcəhətli, hərtərəfli, hər şeyi qavrayan, öz sənətinin bütün ixtisaslarına yaxşı bələd olan işçi mənalarını verir.**

**Yeni dövrdə Azərbaycanda universal elmin tarixi çox da zəngin deyil. Azad Mirzəcanzadənin başçılıq etdiyi universalistlərin siyahısına çox az adamın adını yazmaq olar. Belə alimlərdən biri də geologiya-mineralogiya elmləri doktoru, əməkdar idman və bədən tərbiyəsi xadimi, əməkdar məşqçi, Azərbaycanın maarif əlaçısı, Dünya Şahmat Federasiyasının məktəb və kompüter komissiyalarının üzvü Çapay Əli oglu Sultanovdur. Çapay müəllimin universallıq keyfiyyətinə həm də "Azərbaycanın görkəmli politoloqu" adını da əlavə etmək lazım gəlir.**

*(Əvvəli ötən saylarımızda)*

Çapay müəllimin bu kitabı Bzejinskinin "Şahmat taxtası" adlı kitabından üstün olmasa da, ondan heç də az əhəmiyyətli deyil. Və təəssüf ki, amerikalılardan fərqli olaraq biz bu cür milli qürur verəcək alimlərimizi nə özümüz tanıyır və dəyərləndiririk, nə də dünyaya tanıda bilirik...

Çapay Sultanovun "Şahmat prizmasının içindən..." adlı kitabının altıncı - "Dünya problemləri ilə şahmat taxtası kimi" fəslində müəllif geopolitikanı şahmat məntiqi ilə təhlil edir, dünyada baş verənlər və onların uzaq nəticələri ilə bağlı olduqca maraqlı və inandırıcı nəticələrə gəlir. Məlumdur ki, qlobal problemlərin həlli həm də proqnozlaşdırma ilə sıx bağlıdır. Bununla bağlı Çapay müəllim yazır: "Əlbəttə, istənilən proqnoz üçün başlanğıc vəziyyət proqnozun başlanğıcında dünyada yaranmış vəziyyət olmalıdır... Məlumdur ki, şahmat oyunu başlanğıc vəziyyətdən başlayır - dünya şahmat taxtasında hər şey daha mürəkkəbdir -artıq çoxillik qanunauyğunluqlar mövcuddur, əhəmiyyətli trendlər və çoxlu sayda başqaları, hansı ki, "şahmat vəziyyətinə" mürəkkəb xarakter verir". Bu fəsildə müəllif planetdə baş verən nəhəng dəyişilmələri təhlil edir. Dünyada silahlanma, dünya ticarət mərkəzi və dünya bankının fəaliyyəti, endo və ekzodemoqrafik problemlər, havada, suda və torpaqda yaranan problemlər, insan huquq və azadlıqları, separatçılıq, enerji ehtiyatları və hasilatı, atom enerjisi və nüvə silahlarının yayılması, təbii və humanitar fəlakətlər və s. şahmat primasından təhlil olunur.

Bu fəsildə xüsusən günümüzdə çox aktual olan iqlim dəyişikliyinə - COP 29-da beynəlxalq forumda da məhz bu məsələ müzakirə edilmişdir - şahmat prizmasında baxış sərgilənir.

Yeddinci fəsli müəllif, "Şahmat ideologiyasından istifadə etməklə dünyəvi proseslərin proqnozlarının bəzi mühakimə və aspektləri" adlandırmışdır. Adından da göründüyü kimi, Çapay müəllim bu fəsildə siyasi hadisələrin proqnozlaşdırılması ilə bağlı öz mühakimələrini oxuculara çatdırır. Fəsil informasiyanı proqnozlaşdırmada və fəaliyyətdə əhəmiyyəti ilə başlayır. Məlumdur ki, muasir dövr informakratiya dövrü adlanır. Bununla da informasiya siyasi məsələyə çevrilir və siyasətdə şahmatla eyni məntiqə tabe olduğundan, informasiya problemi də şahmat prizmasından dəyərləndirilmək imkanı qazanır. Bu fəsildə informasiyanın hazırlanması, ötürülməsi və qəbulu kimi məsələlər təhlil edilir. Bu zaman tarixi təcrübəyə geniş yer verilir.

Nəhayət, sonuncu - səkkizinci fəsildə müəllif "şahmat ideologiyasını tətbiq etməklə ölkələr arasında "şahmat partiyalarının" bəzi nümunələri" ilə bağlı geniş təhlil aparır və dünyada baş verən mürəkkəb və çətin başadüşülən siyasi prosesləri asanlıqla dərk etməyin elmi üsullarını təqdim edir. Burada ABŞ, Çin, Rusiya kimi qlobal güclərin dünyanın müxtəlif siyasi coğrafiyalarında oynadıqları siyasi oyunlar təhlil edilir, proqnozlar verilir. Müharibələrin iqtisadi itkiləri, bunun digər sferalarda yaratdığı problemlər müəllifin əsas tədqiqat mövzusuna çevrilir. Burada qlobal güclərin öz siyasətlərini həyata keçirərkən istifadə etdikləri siyasi vasitələr, demoqrafik dəyişikliklərin dünya siyasətinə təsiri - xüsisən miqrasiya problemi, əhalinin cins, yaş tərkibi, ailə problemi, doğuş və ölüm halları və bunun ölkə siyasətində əhəmiyyəti kimi məsələlər təhlil olunur.



Bu fəsildə ən maraqlı məsələlərdən biri pis vərdiş vasitələri - spirtli içki və narkotiklərin qəbulu, tütündən istifadə və bunun siyasi nəticələri haqqında olduqca maraqlı fakt və təhlillərə rast gəlmək olur.

Kitabın Azərbaycan oxucusu üçün əhəmiyyəti həm də qonşu Rusiyada baş verənlərin ətraf siyasi coğrafiyaya təsiri ilə bağlıdır.

Çapay müəllimin bu kitabı o qədər populyar olmayan, amma siyasətdə çox mühüm əhəmiyyət kəsb edən məsələlərə həsr olunub ki, onların hamısı haqqında burada nəsə demək butöv bir kitab yazmağı tələb edir. Amma bu qısa şərh etdiyim məsələlərdən də Çapay müəllimin nəhəng zəhmət tələb edən bu kitabının xalqımız üçün nə əhəmiyyət kəsb etdiyini bilmək olur.

Çapay Sultanovun bu kitabının əhəmiyyəti həm də milli çərçivədə baş verən siyasi proseslərlə qlobal siyasət arasında ilk baxışdan aşkar edilməsi çətin olan əlaqələrə aydınlıq gətirməsidir.

Sonda demək istəyirəm ki, Çapay müəllimin bu kitabı Bzejinskinin "Şahmat taxtası" adlı kitabından üstün olmasa da, ondan heç də az əhəmiyyətli deyil. Və təəssüf ki, amerikalılardan fərqli olaraq biz bu cür milli qürur verəcək alimlərimizi nə özümüz tanıyır və dəyərləndiririk, nə də dünyaya tanıda bilirik.

Çapay müəllimlə bir neçə il çox sıx dostluq əlaqələri saxlamışıq, bilavasitə onunla saatlarla Azərbaycanda gedən cağdaş siyasi proseslər və bu proseslərdə iştirak edən ayrı-ayrı siyasi liderlərin şəxsiyyəti, atdıqları addımları birlikdə təhlil etmişik və bu zaman mən təhlili Çapay müəllim kimi böyük və təcrübəli Qrosmeyster kimi yox, sadəcə kiçik bir şahmat füquru kimi aparmışam..

Təəssüf ki, Çapay müəllim bu dünyanı tərk edib. Ancaq onun öz elmi və kitabları ilə xalqına hələ uzun illər xidmət edəcəyinə və bununla da yaşayanlarla birlikdə öz həyat partiyasını davam etdirəcəyinə inanıram.

Allah rəhmət eləsin, qəbrin nurla dolsun ey nurlu Azərbaycan alimi, istedadlı şahmatçı və uzaqgörən politoloq.

# Azərbaycanda cinayətkarlığın azalması kimləri narahat edir?



**Azərbaycanda özəl reabilitasiya mərkəzlərinin qapadılmasına cəhdlər olunduğu haqda məlumat vermişdik. Qeyd etmişdik ki, dövlət qurumlarından biri belə bir təşəbbüslə çıxış edib, lakin Səhiyyə Nazirliyinin müvafiq rəyindən sonra bu mərkəzlərin bağlanılması məqsədəuyğun hesab olunmayıb. Çünki ölkəmizdə sayları yüzminlərlə olan narkomanları dövlət tibb müəssisələrinin imkanları daxilində müalicə etmək mümkünsüzdür.**

Bütün bunlara baxmayaraq, son vaxtlar bəzi deputatlar tərəfindən özəl reabilitasiya mərkəzlərinin qapadılması istiqamətində çağırışlar səslənir. O cümlədən, bir sıra media subyektləri də məsələni doğru-düzgün analiz etmədən bu kampaniyaya dəstək verirlər. Halbuki, bu sahədə kiçik araşdırma aparmaqla, nəinki özəl reabilitasiya mərkəzlərinin qapadılması, əksinə onlara dövlət dəstəyinin zəruri olduğu qənaətinə gəlmək olar. Əlbəttə, bu mərkəzlər arasında öz məqsəd və məramından kənara çıxanlar, yaranmış vəziyyətdən sui-istifadə edənlər də ola bilər. O cümlədən, bəzi mərkəzlərdə ölüm hadisəsi, pasiyentlərə işgəncə verilməsi faktlarının olduğu da mətbuatdan çoxlarına bəllidir. Lakin 2-3 və daha çox mərkəzdə bu cür anormal mühit varsa, ölkəmizdə mövcud olan 150-yə yaxın özəl reabilitasiya mərkəzinin hamısını qaralamaq, onlara qarşı açıq hücumlar təşkil etmək və yaxud etdirmək heç də ədalətli deyil.

Məsələn, bu gün bəzi media qurumları "belə mərkəzlərin bir çoxu radikal dini təmayüllü şəxslər tərəfindən idarə olunur. Onların necə, harada fəaliyyət göstərdiyi isə gizli saxlanılır", - deyə yazırlar. Öncə onu qeyd edək ki, bu mərkəzlərin heç biri öz ünvanını gizli saxlaya bilməz və bu, mümkün də deyil. Ən azı ona görə ki, həmin mərkəzlər onlara müraciət edən pasiyentlərin hesabına ayaqda qalırlar. Bu səbəbdən də, istər sosial şəbəkələrdə, istər də mediada öz fəaliyyətləri haqda ardıcıl çıxışlar edirlər ki, narkomaniyadan, eləcə də digər asılılıq növündən xilas olmaq istəyən şəxslər onlarla əlaqə qura bilsin. Təbii ki, bu səbəbdən də hər birinin ünvanı və telefon nömrələri açıq şəkildə təqdim olunur.

O ki qaldı bu mərkəzlərin başında "radikal dini təmayüllü şəxslərin" durması haqda iddialara, sözsüz ki, bu da absurddur. Kimsəyə sirr deyil ki, xüsusilə İranın "din pərdəsi" adı altında ölkəmizə qarşı çoxsaylı təxribatlarından sonra dindarların bir yerə toplanmasını xüsusi xidmət orqanları heç bir halda gözdən qoya bilməz. Belə olduğu halda, radikal dini təmayüllü şəxslərin özəl reabilitasiya mərkəzi açıb, orada onlarla şəxsi öz nəzarətləri altında saxlaması necə gözdən qaça bilər? Və yaxud necə mümkün ola bilər ki, hansısa media bu şəxslərin "radikal dini təmayüllü" olduğunu bilsin, xüsusi xidmət orqanları isə bundan xəbərsiz olsun?! Əlbəttə, bu, mümkün deyil və belə mərkəzlərin daim nəzarətdə olduğu şübhəsizdir.

Əksər reabilitasiya mərkəzlərinə dindar şəxslərin rəhbərlik etməsi faktına gəldikdə isə, zənnimizcə, burda qeyri-adi heç nə yoxdur. Kimsəyə sirr deyil ki, bu mərkəzlərin bir çoxu "12 addım" proqramı əsasında fəaliyyət göstərir və bu proqramın əksər maddələri Qurani-Kərimlə üst-üstə düşür. Yəni orada Allahın öz bəndələrinə buyurduğu kəlamlardan fərqli bir tövsiyyə yoxdur. Bu baxımdan, rəhbər şəxsin dindar olması ümumi işə daha çox töhfə verə bilər. Digər tərəfdən, çoxillik təcrübə də onu göstərir ki, istənilən narkomanı, yaxud digər asılılıqlardan əziyyət çəkən insanları müalicə etməyin ən yaxşı yolu onları dinə gətirmək, ibadətlə məşğul olmalarına nail olmaqdır. Belə oldu halda, hansısa reabilitasiya mərkəzinə dindar bir şəxsin rəhbərlik etməsini cəmiyyətə fərqli formada təqdim etmək, həmin mərkəzləri "radikal dindarların ocağı" kimi göstərmək qərəzli olar. Unutmaq olmaz ki, bu mərkəzlərdə hər il onlarla, yüzlərlə narkotik aludəçisi sağlam həyata qovuşur, pis vərdişlərdən uzaq, normal həyat yaşayır.

Bəli, təəssüf ki, eyni fikri bütün müalicə alan insanlar üçün demək mümkün deyil. Elə şəxslər var ki, 6 aylıq müalicə müddətini başa vursa da, qısa müddət sonra yenidən narkomaniyaya qayıdır. Amma buna görə birmənalı şəkildə reabilitasiya mərkəzlərini ittiham etmək də doğru deyil. Çünki insanların hamısı eyni xarakterli olmur, kimi sağalmaq üçün ortaya iradə qoyur, bir başqasının isə ya buna iradəsi çatmır, yaxud sonradan düşdüyü mühit, ailə vəziyyəti, işsizlik və s. səbəblər onu yenidən narkotik istifadəsinə sürükləyir, narkomanların təbirincə desək, "srıv" edir. Təbii ki, bu da son deyil və həmin insanlar yenidən mərkəzə qaytarılır və bu dəfə 6 aylıq deyil, 3 aylıq müalicə alır.

Sözsüz ki, bu gün özəl reabilitasiya mərkəzlərində müalicə almaq hər kəs üçün əlçatan deyil. Bunun üçün ay ərzində təxminən 1000-1500 manat tələb olunur. Bu isə imkansız ailələr üçün çox yüksək bir məbləğdir. Üstəlik, bu mərkəzə müraciət etmək istəyən ailələrin əksəriyyəti artıq var-yoxdan çıxmış olurlar ki, onlar üçün 6 ay ərzində 6000-9000 min manat ödəniş etmək mümkün deyil. Amma onu da nəzərə almaq lazımdır ki, özəl reabilitasiya mərkəzləri məhz pasiyentlərin ailələrindən alınan vəsait hesabına fəaliyyət göstərirlər. Onların böyük əksəriyyətinin başqa yerdən heç bir gəliri olmur. Bu mərkəzlərin hovuzu, idman zalı, çox sayda otağı olan villalarda fəaliyyət göstərdiyini də diqqətdən qaçırmasaq və bura çalışanların xidmət haqqını, pasiyentlərin gündəlik yemək xərclərini və s. əlavə etsək, özəl reqabilitasiya mərkəzlərinin çoxgəlirli biznes sahəsi olmadığını da aydınlaşdırmaq mümkündür. O cümlədən, bu mərkəzlərin demək olar ki, hamısının ən azı 3-4 nəfər imkansız gənci öz hesabına müalicə etdiyi də həqiqətdir. Belə olduğu halda, onları "qanunsuz biznes" qurmaqda ittiham etmək heç də ədalətli hesab oluna bilməz.



> Sözsüz ki, bu gün özəl reabilitasiya mərkəzlərində müalicə almaq hər kəs üçün əlçatan deyil. Bunun üçün ay ərzində təxminən 1000-1500 manat tələb olunur. Bu isə imkansız ailələr üçün çox yüksək bir məbləğdir. Üstəlik, bu mərkəzə müraciət etmək istəyən ailələrin əksəriyyəti artıq var-yoxdan çıxmış olurlar ki, onlar üçün 6 ay ərzində 6000-9000 min manat ödəniş etmək mümkün deyil. Amma onu da nəzərə almaq lazımdır ki, özəl reabilitasiya mərkəzləri məhz pasiyentlərin ailələrindən alınan vəsait hesabına fəaliyyət göstərirlər...

Yeri gəlmişkən, deputat Çingiz Qənizadə mətbuata açıqlamasında iddia edib ki, "Azərbaycan qanunvericiliyinə əsasən, reabilitasiya mərkəzi müvafiq lisenziya almalı və qanuni fəaliyyət göstərməlidir". Doğrusu, hüquq üzrə fəlsəfə doktoru, hüquq müdafiəçisi olan hörmətli deputatın hansı qanuna əsasən özəl reabilitasiya mərkəzlərinin lisenziya almalı olduğunu iddia etməsini müəyyən edə bilmədik. Çünki, özəl reabilitasiya mərkəzləri ölkəmizdə cəmi 3-4 ildir fəaliyyət göstərir, bu müddət ərzində də onların mövcudluğunu tənzimləyən hər hansı bir qanun qəbul edilməyib. Faktiki olaraq əvvəlki dövrdə də Azərbaycanda özəl reabilitasiya mərkəzləri ilə bağlı hansısa qanun mövcud olmayıb. Odur ki, indi bu mərkəzlərin hər biri Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) kimi fəaliyyət göstərir və bildiyimizə görə, dövlətin də vergisini ödəyirlər.

Ən qəribəsi isə odur ki, bu gün Azərbaycanda özəl reabilitasiya mərkəzlərinə lisenziya verəcək, yəni onlara "sahib çıxan" bir rəsmi qurum da mövcud deyil. Məsələn, Səhiyyə Nazirliyindən bildirilir ki, bu mərkəzlərin fəaliyyətinə Elm və Təhsil Nazirliyi (?) cavabdehdir. Deyirlər ki, biz ancaq dərmanla müalicə apardıqları halda onların fəaliyyətinə müdaxilə edə bilərik. Qarşı tərəf - Elm və Təhsil Nazirliyi isə ümumiyyətlə öz "cavabdehlik" missiyasından xəbərsizdir. Belə bir vəziyyətdə bu mərkəzləri qanunsuz fəaliyyət göstərməkdə ittiham etmək də yanlışdır.

Təbii ki, biz özəl reabilitasiya mərkəzlərinin "özbaşına", nəzarətsiz fəaliyyət göstərmələrini təqdir etmirik. Əksinə, bu mərkəzlərin fəaliyyətinin dövlət tərəfindən nəzarətə götürülməsini dəstəkləyirik. Bununla əlaqədar deputatlarla çoxsaylı müsahibələr də götürmüşük ki, reabilitasiya mərkəzlərinin fəaliyyəti qanunla tənzimlənsin, bu sahədə mövcud olan neqativlər aradan qaldırılsın. Lakin çox təəssüf ki, bizim bəzi deputatlar qurucu bir təklif irəli sürməkdənsə, adətən qurulanı dağıtmaqdan yana olublar...

Çingiz Qənizadə öz müsahibəsində haqlı olaraq narkomaniya sahəsindəki kadr problemindən də söhbət açır: "...Həmin fəaliyyət növü ilə məşğul olanlar özlərini xeyirxah qrup kimi təqdim etməklə guya insanları müalicə edirlər. Əslində bunun arxasında maddi və digər maraqlar durur və qeyri-professional şəxslər tərəfindən qəbul olunmayan metodlarla insanları bu bəladan qurtarmağa guya kömək edirlər". Əlbəttə, Azərbaycanda bu sahədə ixtisaslı kadr çatışmazlığının olduğu kimsəyə sirr deyil. Məsələn, ölkəmizdəki narkoloqların böyük əksəriyyəti sovet dönəmində təhsil alan kadrlardır. Hazırda onların sayı isə, belə desək, barmaqla sayılacaq qədərdir. Çünki bir çoxu faktiki olaraq bu sahədən uzaqlaşıb. Və bir halda ki, bu gün ölkəmizdə rəsmi olaraq 45 min, qeyri-rəsmi isə 280 min nəfərə yaxın narkoman var, o halda diplomlu narkoloqlar, psixiatrlar, psixoterapevtlər və s. hesabına narkomaniyanın qarşısını almaq mümkündürmü? Fikrimizcə, bu suala hörmətli Ç.Qənizadənin özü cavab versə, daha yaxşı olar.

Sonda isə bir məsələni də xüsusi olaraq vurğulamaq istərdik. Kimsəyə sirr deyil ki, narkomanlar potensiyal cinayətkarlardır. Tərəfimizdən aparılan çoxsaylı araşdırmalar zamanı sübut etmişik ki, son illərdə ölkədə cinayətkarlığın artması bilavasitə narkomaniyanın genişlənməsi ilə əlaqədardır. Xüsusilə, oğurluq, talançılıq, quldurluq, dəhşətli qətl hadisələrinin və s. artması birbaşa narkomanların sayının çoxalması ilə bağlıdır. Nəzərə alsaq ki, bu gün ölkəmizdə təxminən 150 özəl reabilitasiya mərkəzi var və burada il ərzində ümumilikdə 10-12 min nəfər müalicə alır və orta hesabla 50 faizi sağlam həyata qayıdır, beləliklə ölkədə cinayətkarlığın səviyyəsi də aşağı düşür, o zaman bu mərkəzlərin fəaliyyəti niyə kimlərisə narahat etməlidir?!

**Hazırladı: İ.SABİRQIZI**

**Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, H/şəhərcik-3, ev 14, mənzil 2-də yaşayan Talıbov Əhməd Mahmud oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. İşdən qanunsuz olaraq çıxarıldığının bildirən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

## "Məhkəmə əvvəlki işimə bərpa edilməsi haqda qərar versə də, qarşı tərəf əməl etmir"



# Hərbi hissədəki yeyinti faktlarını açıqladı, "dəlixana"ya göndərmək istədilər

## Əhməd Talıbov: "Hərbi qulluqçuları və mülki işçiləri üzümə durdurmağa məcbur etməklə, məni ləkələyərək işdən azad etdilər"

"Məşhur "Tərtər terroru" zamanı Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən minlərlə hərbçi və mülki şəxslərə qarşı törədilmiş müxtəlif amansız işgəncələr tətbiq edilməklə insanların faciəli şəkildə öldürülməsi, günahsız şəxslərin heç bir əsas olmadan təqsirləndilərək məhkəmələrdə onlar haqqında qanunsuz hökmlər çıxarılması və bunula yanaşı, bir sıra əsl təqsirkar şəxslərin cinayətlərinin gizlədilməsi faktı hər kəsə məlumdur. Görünür, bu, artıq vərdiş halını aldığından Hərbi Prokurorluq eyni qaydada fəaliyyət göstərməyi israrla davam etdirir.

Bildirirəm ki, mən, 03 dekabr 1990-cı il tarixdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarında sürücü vəzifəsində işə qəbul olunmuşam, dəfələrlə ən qızğın döyüş əməliyyatları gedən qaynar nöqtələrə ezam olunmuşam və hər zaman aldığım tapşırıqları yüksək səviyyədə yerinə yetirmişəm.

İşçisi olduğun MN-nin MƏA-da cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməllərin aşkar şəkildə törədilməsi barədə rəsmi dövlət orqanlarına məlumat verdiyimə görə, rəhbərlik tərəfindən şəxsiyyətim alçaldılaraq dözülməz təzyiqlərlə məruz qaldım və bunun nəticəsində çəkdiyim iztarablara dözə bilməməyim səbəbindən, 06.02.2020-ci il tarixdə iş yerində olarkən intihar etmək üçün damarlarımı kəsdim.

MƏA-nın rəisi Kərimov Camal tərəfindən hadisə yerinə çağrılan MN-nin Maddi-Texniki Təminat Baş İdarəsinin təhqiqatçısı Həsənov Saday Səbuhi oğlu MƏA-nın rəisi və oranın hüquq məsləhətçisi Pənahov Azər Həsən oğlu ilə birləşərək, məni "ruhi xəstə" kimi Maştağa Ruhi Əsəb Dispanserinə (Dlixanaya) yerləşdirmək üçün çox çalışdılar, lakin bu cəhdləri baş tutmadı. Bundan sonra onlar taktikalarını dəyişərək, hərbi qulluqçuları və mülki işçiləri üzümə durdurmağa məcbur etməklə, mənim haqqımda bilərəkdən saxta və uydurma sənədlər hazırlayaraq, MƏA rəisinin 18.06.2020-ci il tarixli 135 saylı əmri ilə məni ləkələyərək işdən azad etdilər.

Bakı Apellyasiya Məhkəməsinin 2(103)-2814/2021 saylı iş üzrə 12.04.2021-ci il tarixli qətnaməsi ilə Müdafiə Nazirliyi Mərkəzi Ərzaq Anbarı rəisinin 18.06.2020-ci il tarixli 135 saylı əmrinin ləğv edilməsi, Talıbov Əhməd Mahmud oğlunun öz əvvəlki işinə bərpa edilməsi və məcburi işburaxma müddəti üçün əmək haqqı ödənilməsi qət edilmişdir. Lakin qarşı tərəf "İcra haqqında" Azərbaycan Respublikası Qanunun 70.2-ci maddəsinin tələbini pozaraq, məni öz əvvəlki işimə bərpa etməmişdir.

Qeyd edirəm ki, işdən azad edilən günə qədər yük götürmə qabiliyyəti 26 ton olan MAZ 544005 markalı P 340 QQ nömrə nişanlı avtomobili idarə etmişəm. Minsk avtomobil zavodunun istehsalı olan MAZ markalı avtomobillərin texniki göstəricilərinin əks olunduğu kitabda həmin avtomobilin tam yüklə 100 km məsafəyə 60 km/saat sürətlə cəmi 28 litr yanacaq sərf etdiyi göstərilmişdir.

MƏA-nın Daşıma bölməsinin balansında olan yük maşınları "Maz", "Kamaz" və "Qazel" markalı avtomobillərdən ibarətdir. Həmin avtomobillər üçün yanacaq sərfiyyatı norması istehsalçı zavod tərəfindən artıq müəyyən edildiyi halda, onlar MƏA-na daxil olan kimi onların sərfiyyat norması yenidən təyin olunur və bunun sayəsində tonlarla artıq yanacaq silinərək dövlətə külli miqdarda zərər vurulur.

Mənim idarə etdiyim avtomobillə Bakı şəhərindən 370 km məsafədə yerləşən MƏA-nın Gəncə bölməsinə 20-25 ton yüklə gedib-qayıtmaq üçün hər dəfə 200 litrdən artıq yanacaq sərf etmədiyinin şahidi olmuşam. Buna baxmayaraq, həmin avtomobilə hər reys üçün təxminən 300 litr artıq dizel yanacağı silinirdi.

DTX-ya ünvanladığım müraciət Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna göndərilmiş və araşdırma nəticəsində müəyyən edilmişdir ki, Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarının Daşıma Bölməsinə məxsus avtomobillərin yanacaq sərfiyyatı zavod tərəfindən müəyyən edilmiş norma üzrə deyil, guya Azərbaycan Respublikası Müdafiə nazirinin 05 may 2014-cü il tarixli 21 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Silahlı Qüvvələrində hərbi texnikaların, silahların, avadanlıqların, texniki vasitələrin istismarı, təmiri və konservasiyası üçün yanacağın, yağların, sürtgülərin, xüsusi mayelərin sərfiyyatı Normaları"nda dəyişikliklər edilməsi haqqında 28.07.2017-ci il tarixli qərarına əsasən silinir. Həmin qərarda MAZ 544005 markalı avtomobilin 100 km məsafə üçün istehsalçı zavodun müəyyən etdiyi norma 21 litr artırılaraq 49 litr göstərilmişdir. Halbuki avtomobil istehsalı ilə heç bir əlaqəsi olmadığına görə, Müdafiə Nazirliyinin avtomobil zavodunun müəyyən etdiyi normanı artırmaq səlahiyyəti yoxdur və bu, sadəcə olaraq, bir korrupsiya məmbəyidir.




Bununla əlaqədar "Google"-də axtarış verərərək müəyyən etmişəm ki, Azərbaycan Respublikası Müdafiə nazirinin Azərbaycan Silihlı Qüvvələrində hərbi texnikaların, silahların, avadanlıqların, texniki vasitələrin istismarı, təmiri və konservasiyası üçün yanacağın, yağların, sürtgülərin, xüsusi mayelərin sərfiyyatı normalarında dəyişikliklər edilməsi haqqında 28.07.2017-ci il tarixli qərarı ümumiyyətlə mövcud deyildir.

Nəzərə alsaq ki, hər bir avtomobilin illik yürüş norması 25000 kilometrdir, il ərzində dövlət büdcəsinə külli miqdarda maddi zərər vurulduğu göz qabağındadır.

Bütün bunlara baxnayaraq, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi təsisatlarda qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin prokuroru Novruzzadə Elnur Elman oğlu 07 may 2024-cü il tarixdə "cinayət işinin başlanmasının rədd edilməsi haqqında" qərar qəbul etmişdir.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 212.3-cü maddəsinə əsasən, Hərbi Prokurorluğun 07.05.2024-cü il tarixli qərarından məhkəmə nəzarəti qaydasında Bakı Hərbi Məhkəməsinə şikayət vermişəm. Bakı Hərbi Məhkəməsinin 6-1(093)-13/2024 saylı 29.07.2024-cü il tarixli qərarаı ilə Talıbov Əhməd Mahmud oğlunun verdiyi şikayət icraata götürülmədən geri qaytarılmışdır. Qərar onunla əsaslandırılmışdır ki, Talıbov Əhməd Mahmud oğlu yalnız bu qərar onun hüquq və azadlıqlarını pozduğu, onun hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət hüququnu məhdudlaşdırdığı təqdirdə həmin qərardan şikayət verə bilərdi. Lakin məhkəmə onu nəzərə almamışdır ki, Azərbaycan dövlətinin mənafeyinə vurulan zərər hər bir vətəndaşımızın mənafeyinə vurulan zərər deməkdir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyində mütəşəkkil şəkildə dövlətə qarşı uzun illər ərzində, hazırda da hər gün təkrar törədilən ağır cinayət əməlləri barədə dəfələrlə elektron qaydada və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin inzibati binasında yerləşən 205 nömrəli otaqda məni qəbul edərkən adının Anar olduğunu bildirən əməkdaşa biləvasitə, yəni əlbə-əl ərizə təqdim etməklə rəsmi qaydada məlumat vermişəm.

Dövlət Təhlükəsizliyi Xidməti qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlər əsasında ölkəmizin milli təhlükəsizliyinin təmin olunması məqsədilə fəaliyyət göstərən xüsusi xidmət orqanıdır. Bu fəaliyyət çərçivəsində DTX xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və digər milli maraqlarına zərər vura biləcək kəşfiyyat, terror-təxribat və sair pozuculuq əməllərinin aşkarlanması, qabaqlanması və qarşısının alınması istiqamətində əkskəşfiyyat, əməliyyat-axtarış və istintaq tədbirləri həyata keçirir. Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər, terrorçuluq, kibercinayətlət, habelə dövlətin ictimai və iqtisadi sahədə milli təhlükəsizlik maraqlarına və qanunla qorunan mənafelərinə mühüm zərər vuran cinayətlərin vəzifəli şəxs tərəfindən törədildiyi aşkar olunduqda, həmin cinayətlərə dair işlər üzrə ibtidai istintaqı Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti aparır.

Lakin Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə etdiyim müraciətlər araşdırılmadan, birbaşa Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilmişdir. Halbuki, belə məlumatların araşdırılması Ali Məhkəmənin səlahiyyətləri dairəsinə aid deyildir. Azərbaycan Respublikasının Ali Məhkəməsi, Konstitusiyanın 131-ci maddəsinin I hissəsinə əsasən, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir; məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir.

Azərbaycan Respublikasının Ali Məhkəməsindən mənə göndərilən 08 oktyabr 2024-cü il tarixli 1-8/2-T-4941/5-23-12155/2024 №-li və 25 oktyabr 2024-cü il tarixli 1-8/2-T-4941/10-23-13231/2024 №-li eyni məzmunlu cavab məktublarında, əvvəlcədən mənə məlum olan məlumatlar təqdim etdiyim ərizələrdən köçürülərək göstərilmişdir: "Bildirirk ki, Bakı Hərbi Məhkəməsinin 2024-cü il 29 iyul tarixli 6-1(093)-13/2024 nömrəli qərarı ilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi təsisatlarda qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsi tərəfindən 27C-24 saylı toplanmış araşdırma materialları əsasında qəbul etdiyi 2024-cü il 7 may tarixli "Cinayət işinin başlanılmasının rədd edilməsi haqqında" qərarından tərəfinizdən verilmiş şikayət icraata götürülməmiş və geri qaytarılmışdır".

***(Ardı var)***

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Putin Azərbaycana

## Rusiya Prezidenti yanında İnsan Hüquqları Şurası üzvünün ölkəmizə qarşı qabalıq etməsi təsadüf sayıla bilər?

Dünən - yanvarın 20-də Baş prokuror Kamran Əliyev bildirdi ki, Azərbaycan AZAL-a məxsus təyyarənin qəzaya uğraması ilə bağlı Qazaxıstan və Rusiya ilə birgə araşdırma aparır. Onun sözlərinə görə, hər üç ölkədə cinayət işi açılıb: "Hər üç dövlət onlara aid sübutlar toplayır, bunların hamısı öyrəniləcək".



### Marina Axmedova "kimin dili ilə" danışaraq, Azərbaycan Prezidentindən üzrxahlıq tələb edir?!

Aktau qəzasının səbəblərinin şəffaf şəkildə açıqlanmasını gözləməyimizə rəğmən, gedişat onu göstərir ki, nəinki buna şahid olacağıq, əksinə sübutların ört-basdır edilməsi üçün cəhdlər dayanmayacaq. Çünki hazırda suçlu tərəf etiraf yerinə, dünya ictimaiyyətini çaşdırmaq, korun qaranlıqda belə görə biləcəyi faktları təhrif etmək xəttini tutub.

Dünya da bilir ki, bu ölkədən dürüst mövqe ummaq ən azı sadəlövhlükdür. Əlbəttə, söhbət Rusiyadan gedir. Bu bəs deyilmiş kimi, "qara məni basınca qoy qaranı mən basım" məntiqiylə hərəkət edən Kreml siyasi etikadan kənar tövrləri ilə ikrah doğuran mahiyyətini gözəl biruzə verir. Məsələn, "Baza" rus telegram kanalı bu günlərdə Bakı-Qroznı təyyarəsi ekipajının danışıqlarının tam stenoqramını dərc edib. Buradan belə absurd nəticə çıxır ki, pilotlar Qroznıya enməmək qərarına "özbaşına" gəliblər. Elə Aktauya enmək qərarına da onlar "özləri" gəliblər və artıq Rostov-Don dispetçerləri ilə əlaqə saxlayıblar. Müəllif iddia edir ki, guya, "göyərtəsində quşlarla toqquşma və partlayan qaz balonu" ilə bağlı versiya dispetçerlərlə danışıqlarda təyyarənin heyəti tərəfindən səsləndirilib. Təyyarədə xarici təsir olsa da, pilot fövqəladə vəziyyət elan etməyib. Teleqram kanalı tənbəllik etməyib, Qroznı hava limanının dispetçerləri ilə "Azərbaycan Hava Yolları"nın reysinin heyəti arasında danışıqları da dərc edib.

**Bundan əlavə, Rusiya mediasında qəzaya uğrayan "Azərbaycan Hava Yolları" QSC-nin təyyarəsinin pilotları ilə aviadispetçerlər arasında danışıqların stenoqramı da mətbuatda dərc olunub. Təbii ki, Kremlə sərf edən prizmadan. Rusiyanın rakursuna görə, danışıqların dərc olunmuş mətnindən belə çıxır ki:**

*- Qroznıya enməmək, Mahaçqalaya uçmamaq, sonra yenidən Bakıya və nəticədə Aktauya getmək qərarı Azərbaycan Hava Yollarının ekipajı tərəfindən müstəqil olaraq qəbul edilib;*

*- Dispetçerlər Qroznıya, daha sonra Mahaçqalaya eniş etməyi təklif edib və heyətə Rusiyanın digər hava limanları haqqında məlumat veriblər, lakin ekipaj bundan imtina edib;*

*- Göyərtədə "quşlarla toqquşma və partlamış qaz balonu" ilə bağlı versiya dispetçerlərlə danışıqlarda təyyarənin heyəti tərəfindən səsləndirilib;*

*- Təyyarədə xarici təsir olub, lakin pilot təyyarədə fövqəladə vəziyyət elan etməyib.*

Bundan əvvəl Rusiya XİN başçısı Sergey Lavrov da bəyan etmişdi ki, qara qutulardakı məlumatlar medianın qəzanın səbəbləri ilə bağlı gəldiyi qənaətləri təsdiq etmir.

"Saqqızı suya düşən" Kreml əlaltılarına göstəriş verib ki, elə bir ictimai rəy formalaşdırsınlar ki, guya "Putin üzərinə düşən üzrxahlığı etdikdən sonra rəsmi Bakı tərəfindən haqsızlığa məruz qalıb və mənəvi zərərə uğrayıb, indi isə ona dəyən mənəvi zərərin təzminatını gözləyir və buna haqqı da var".

**Rusiyanın digər ölkələrlə hər zamankı qeyri-korrekt siyasi rəftarının bariz nümunələrindən biri də Rusiya Federasiyasının Prezidenti yanında İnsan Hüquqları Şurasının üzvü Marina Axmedovanın diliylə səsləndirilib. Marina Axmedova bildirirb ki, Aktauda qəzaya uğrayan Azərbaycan təyyarəsinin qara qutularının yazılarından bunlar məlum olub: partlayan qaz balonu və quşlar versiyası haqqında təyyarə ekipajı özü danışıb. Bu fikirlərinin ardınca isə Axmedova deyir:**

"Beləliklə, bir neçə gün keçdi və həddən artıq emosional Azərbaycan Prezidenti Əliyev susur, Rusiya tərəfindən üzr istəmir".

Qəzanın ilk günlərində "tupik" vəziyyətinə düşmüş Rusiya tərəfinin günlər keçdikcə "dili açılıb", hətta o qədər ki, insan hüquqlarından əsər-əlamət olmayan ölkədə Prezident yanında İnsan Hüquqları Şurasının üzvü Marina Axmedovanın diliylə qabalıq edir. Bu, ən azı "siyasi zırramalıq"dır ki, onu da Rusiyadan gözləmək olardı.

> ...Bu düşüncənin özü belə, ən azı siyasi tərbiyəsizlikdir. Azərbaycan milli-etnik kimliyindən asılı olmayaraq təyyarə ekipajın dəyərləndirdi, onları ucaltdı, maddi təzminat verdi və s. Bununla göstərdi ki, insana yanaşma dövlət səviyyəsində necə olur... Bu da bizim dövlətçilik münasibətimizin rus düşüncəsindən nə qədər fərqli olduğunu ortaya qoyur

Kreml kolunadası təyyarə qəzasına görə günahı partlayan qaz balonunun və quşların üstünə atmaqla qalmır, özündə Azərbaycanın quru sərhədlərinin bağlı qalmasına görə hesabat tələb edəcək qədər cəsarət tapır. "Ondan soruşmağa dəyər ki, niyə pandemiyadan bəri Azərbaycanın quru sərhədləri bağlanıb və əvvəllər Cənubi Dağıstan vasitəsilə Azərbaycana gedib-gələn insanlar indi niyə təyyarələrlə



uçmağa məcburdurlar? Bu, aviaşirkətlər üçün sərfəlidir, amma Əliyevin bu qədər maraqlandığı insanlar üçün rahat deyil", deyən Axmedovanın sözləri başqa ölkənin işlərinə qarışmağı öz siyasətinə çevirmiş Rusiyanın mövqeyini əks etdirir. Amma məsələnin məğzi odur ki, törətdiyi əmələ görə məsuliyyət daşımaq kimi dövlətçilik ənənənəsi olmayan Rusiya bu terror aktının yükündən qarşı tərəfi suçlayaraq, qurtulmaq fikrindədir. Üstəlik, maddi təzminat məsələsi də

# “hücum” əmri verib?

**Putin anlamalıdır ki, siyasi etikadan məhrum məmurlarının ağzına yal atıb, onlar Azərbaycan dövlətinə və Prezidentinə qarşı söz hücumuna keçirməkdənsə, öz yanlışlıqlarını gözdən keçirmək, korrektə etmək daha doğru və faydalı olar. Əks halda ölkəsinin çöküş sürəcini daha da tezləşdirmiş olar...**



var. Hansı ki, Kremlin etdiyi bu gedişatla arxa plana keçəcək.

Amma nədənsə qonşuları ilə siyasi konstruktivlik müstəvisində çalışan rəsmi Bakıya qarşı kin qusan bəzi rus media resursları “ayıblarına kor olmaqdansa” yanvarın 17-də Bakıya gələn Gürcüstanın baş naziri İrakli Kobaxidze ilə keçirilən görüşü də “Azərbaycan tərəfinin Rusiyanı başqa necə bezdirəcəyi haqda müzakirələrin” aparılması kimi qələmə verirlər. “Yeri gəlmişkən, bu, “Gürcü Arzusu” liderinin ilk xarici səfəridir, ona görə də, eyni zamanda, “rusiyapərəst” adlanan partiyanın hara yönələcəyini başa düşə bilərik. Bizə yox, Türkiyə və Azərbaycana”, deyə bəzi rus media resursları bildirir.

Digər tərəfdən isə, rus düşüncəsinin necə işlədiyini görmək üçün rus teleqram kanallarında yazılanlara baxmaq köməkçi olar. Yazı müəllifləri həlak olanların içində rus vətəndaşlarının da olduğunu, üstəlik, pilotların da milliyyətcə rus olduğunu, təhqiqat bitmədən Azərbaycanın artıq günahkarın Rusiya olduğunu müəyyən etdiyini, qəzanın Ukrayna dronlarının hücumu nəticəsində baş verə biləcəyini, buna baxmayaraq Prezident Əliyevin Ukraynaya heç bir irad bildirmədiyini irəli sürülər. Üstəlik, Prezident Əliyevin haqlı olaraq Rusiyadan üzr və təzminat tələb etməsini həzm edə bilmədiklərini göstərməklə yanaşı, həm də Zəngəzur dəhlizi də daxil olmaqla, ciddi geosiyasi güzəştlər tələb etdiyini ortaya atırlar. Yəni, yazı müəlliflərinin fikrincə, Azərbaycan qəzanı əlində alətə çevirərək, Rusiyanın Zəngəzur dəhlizi üçün Ermənistana təzyiq etməsini istəyir.

Bu düşüncənin özü belə, ən azı siyasi tərbiyəsizlikdir. Azərbaycan milli-etnik kimliyindən asılı olmayaraq təyyarə ekipajın dəyərləndirdi, onları ucaltdı, maddi təzminat verdi və s. Bununla göstərdi ki, insana yanaşma dövlət səviyyəsində necə olur... Bu da bizim dövlətçilik münasibətimizin rus düşüncəsindən nə qədər fərqli olduğunu ortaya qoyur.

Bu arada, “The New York Times” nəşri də Əliyevlə Putin arasında telefon danışığının təfərrüatlarına toxunaraq, Rusiya prezidentinin dekabrın 28-də Əliyevlə telefon danışığında təyyarənin qəzaya uğramasında quşları, qaz balonunu və Ukraynaya məxsus PUA-ları günahlandırmasını, lakin Prezident Əliyevin ona etimad etmədiyini, ertəsi gün Putinin Prezident Əliyevi Moskvada qəzanın araşdırılmasına razılıq verməyə çağırmasını, Əliyevin təyyarənin qara qutularının Braziliyada yoxlanılmasını israrla tələb etdiyini vurğulayaraq, bunların Rusiya liderinə inamsızlığın bariz nümunəsi olduğunu yazdı. Nəşrin yazdığına görə, Putin Prezident Əliyevi təyyarənin qəzaya uğrama səbəbləri barədə susmağa məcbur etməyə çalışıb. Lakin Prezident Əliyev təkid edib ki, Rusiya Federasiyası öz günahını açıq şəkildə etiraf etsin. “The New York Times”a adının çəkilməsini istəməyən yüksək səviyyəli məxfi diplomat qəzadan sonra baş verənləri Azərbaycanın özünü idarə etmək qabiliyyətinin “konseptual sübutu” kimi qiymətləndirib.

Əlbəttə, bütün mənfi tərəfləri ilə yanaşı, Aktau qəzası Azərbaycanın öz ayaqları üstündə durduğunu göstərdi, özünü müstəqil dövlət kimi təsdiqlədiyini, öz mövqeyi uğrunda yeri gələndə bölgənin can verməkdə olan yaralı ayısı Rusiyaya meydan oxuduğunu sübut etdi.

Digər bir nüans isə bəlli etdi ki, Qazaxıstan Rusiyanın qəzəbindən yayınmağa çalışır. İlk olaraq, Qazaxıstanın təyyarənin qara qutusunu Braziliyaya göndərməsi səbəsiz deyildi. Bu, Rusiyanın qara qutunun rus ekspertlər tərəfindən araşdırılması təklifi qarşısında özünü sığortalamaq üçün gedişi idi. Və ağıllı gediş idi. Aydındır ki, qara qutu Braziliyaya getməsəydi, Rusiya qutunun nə Qazaxıstanda, nə Azərbaycanda açılmasının qarşısını almaq üçün heç bir təxribatdan çəkinməyəcəkdi. Braziliyaya gedən qara qutudan Rusiyanın müdaxiləsi olmadan hadisənin təfərrüatları öyrənilib, geniş ictimaiyyətə açıqlanıb-açıqlanmayacağına dair tərəddüdlər olsa belə, Azərbaycan məsələnin nə yerdə olduğunu bilir. Amma heç bir şey rus ayısının ağlını başına yığıb konstuktiv mövqe tutması üçün Kremli razı sala bilməzdi. Çünki Rusiya heç vaxt bu təfəkkürün sahibi olmayıb.

Bəs hadisədən ötən vaxt nəyi dəyişəcək? Təyyarənin Rusiya tərəfindən vurulması bəlli olsa da, Kreml nə vaxta qədər dirəniş göstərəcək? Bir daha xatırladaq ki, rus teleqram kanallarında bu qəzanın “Ukrayna dronlarının müdaxiləsi” nəticəsində baş verdiyi iddia olunur. Və proses hüquqi müstəvidə əksini tapmasa, Rusiya maddi təzminatdan qaçacaq. Bu isə Azərbaycana qarşı əsl şovinist münasibətdir. Aydındır ki, imperiya təfəkkürlü Rusiyanın həm Qazaxıstana, həm bizə yanaşması dəyişməz qalacaq.

Haşiyə çıxaraq qeyd edək ki, “The New York Times” Bakıda sağ qalan üç nəfərlə müsahibə də təşkil edib. Onlar bildiriblər ki, havada ən azı iki partlayış baş verəndən sonra bəzi sərnişinlər hücuma məruz qalıblar.

“İkinci partlayışdan sonra təyyarənin arxasından partlayışın külək dalğası əsib və digər sərnişinlərdən ”bizi vurdular” deyə qışqırıqlar olub. Həmçinin, ikinci partlayışdan sonra bir qız qışqırmağa başlayıb. 28 yaşlı Leyla Ömərova pəncərədəki oturacağından o biri tərəfə baxanda həmin qızın qoltuqlarının qana bulaşdığını görüb.Təyyarə Xəzər dənizinə 100 fut məsafədə yellənərkən, sərnişin Siracov fikirləşib ki, ən azı onun və həyat yoldaşının kimin birinci öləcəyinə dair mübahisələri nəhayət həll olunacaq: Onlar birlikdə öləcəklər. Lakin təyyarənin ön hissəsi zərbədən parçalandıqdan sonra quyruq hissəsi qopub, çevrilib və qumlu torpağın arasından yüzlərlə metr sürüşüb. ”Yaşayan varmı?” soruşan Siracov xatırlayır ki, təhlükəsizlik kəmərindən başıaşağı sallanan zaman qəfil sükutda qışqırırmış”, deyə “The New York Times” yazır.

“Ötən həftə Azərbaycan rəsmiləri və hökumətə yaxın adamlarla müsahibələr göstərdi ki, dekabrın 25-də göyərtəsində 67 nəfərin olduğu Embraer 190 təyyarəsinin qəzaya uğraması keçmiş Sovet İttifaqı üçün necə geosiyasi hadisəyə çevrilib. Cənab Putinə faciə ilə bağlı öz cavabını diktə etməyə imkan verməkdənsə, cənab Əliyev Rusiyanın məsuliyyəti öz üzərinə götürməməsi ilə bağlı dəfələrlə tənqid atəşinə tutub”, “The New York Times” davam edir.

Nəşrin yazdığına görə, uçuş məlumatları göstərir ki, Xəzər dənizini keçdikdən, yəni pilotlar quş vurması barədə məlumat verdikdən bir saatdan çox vaxt keçdikdən sonra, təyyarə Aktau hava limanında ikinci eniş cəhdi zamanı qəzaya uğrayıb. Təhqiqata yaxın bir şəxsin sözlərinə görə, sağ qalanların hamısı təyyarənin təxminən arxa üçdə birində oturubmuş.

Sonda isə bir daha xatırladaq ki, Putinin Ukraynaya təcavüz əmrindən sonra Avropa öz hava məkanını Rusiya üçün bağladı. Bunun üçün Qərbə uçan bir çox ruslar indi Rusiya və İran arasında sıxışdırılmış neft və qazla zəngin keçmiş sovet respublikası olan 10 milyonluq Azərbaycandan keçib gedirlər. Rusiya həmçinin Azərbaycanı cənubdan İran, Hindistan və Fars körfəzinə uzanan genişləndirilmiş ticarət yolunda əsas halqa kimi görür. Bu mənada Azərbaycana möhtac olan Rusiya öz mənafeyi üçün rəsmi Bakı ilə münasibətləri normallaşdırmağın yolunu tapmalı, “daldadakı bostan” düşüncəsindən hörmət və siyasi konstruktivlik yoluna gəlməlidir. Putin anlamalıdır ki, siyasi etikadan məhrum məmurlarının ağzına yal atıb, onlar Azərbaycan dövlətinə və Prezidentinə qarşı söz hücumuna keçirməkdənsə, öz yanlışlıqlarını gözdən keçirmək, korrektə etmək daha doğru və faydalı olar. Əks halda ölkəsinin çöküş sürəcini daha da tezləşdirmiş olar...

**Ülviyyə ŞÜKÜROVA**

# Psixoloji travmanın səbəbləri

## Klinik psixoloq, psixoterapevt, Dünya Yaddaş Olimpiadaları Federasiyasının üzvü Mirşahin Əlizadə: "İnanclarımız travmalardan daha çox həyatımıza təsir edir"

"İnsan həyatında yaşanan və bəzən onun iradəsindən aslı olmayaraq baş verən hadisə və proseslər onun psixologiyasında müəyyən izlər buraxa bilir. Travma 1-44 yaş qrupunda ölən insanların əsas səbəbidir. Xərçəng və ürək damar xəstəliklərindən sonra üçüncü yerdə gəlir. "Travma" yunan sözü olub, "yara" mənasına gəlir".



"Hürriyyət" qəzetinə açıqlamasında bu haqda Klinik psixoloq, psixoterapevt, Dünya Yaddaş Olimpiadaları Federasiyasının üzvü Mirşahin Əlizadə bildirib. O deyir ki, "travma" başımıza gələn hadisələr deyil, başımıza gələn hadisələr nəticəsində zehnimizin çıxardığı nəticələrdir. Bu sualın cavabını isə tam dərk etmək üçün zehnin necə işlədiyini bilmək lazımdır:

"Biz dünyaya gəldiyimiz andan etibarən 5 duyğu üzvümüz vasitəsilə (görmə, eşitmə, iybilmə, dadbilmə, toxunma) ətraf mühitdən davamlı informasiyalar alırıq. Topladığımız bu informasiyalar zehnimizdə müəyyən kateqoriyalar üzrə qruplaşdırılır. Adətən bu kateqoriyalar - insanlar, hadisələr və vəziyyətlər olur. Bilirik ki, zehin iki hissədən ibarətdir: şüur və şüuraltı. Şüurlu zehin həyatımızın cəmi 5%-lik bir hissəsini idarə edir, saniyədə cəmi 40 bit informasiya emal edir. Şüuraltı zehin isə həyatımızın 95% hissəsini idarə edir və şüurlu zehindən düz 1 milyon dəfə daha sürətlə işləyir, yəni saniyədə 40 milyon bit informasiya emal edir.

Ətraf mühitdən topladığımız informasiyalar zehnimizdə əvvəllər bizə tanış olan insanlar, vəziyyətlər ya da hadisələrlə əlaqələndirildiyi zaman, şüuraltı zehnimiz həmin anda (keçmişində) qazandığı inancları sanki bir eynək kimi bizim gözümüzə taxır. Artıq biz məsələyə o eynəklə baxırıq. Bu inanclar isə ya bizi dəstəkləyən müsbət, ya da bizi əngəlləyən mənfi inanclar olur. İstənilən halda inanclar bir duyğu yaradır, biz həmin duyğuya uyğun davranışlar sərgiləyirik.

Hamımıza da məlumdur ki, insan həyatda nə edirsə, onun bəhrəsini görür. Yəni davranışlarımız kimliyimizi formalaşdırır. Ruh halımızdan sosial məsələlərə, özgüvənimizdən hətta fiziki sağlamlığımıza qədər, - hamısı performanslarımızın nəticəsidir (davranışdır). Nəticə etibarilə, bu ssenari dövr edir. Həyatımızda davamlı təkrarlanan hadisələr yaşanır. Eyni vəziyyətlər, eyni cür insanlar, eyni uğurlar, eyni uğursuzluqlar... İnsan bunların səbəbini şüurlu olaraq dərk edə bilmədikdə, mistik mənalar yükləməyə başlayır. Günahı "qara qüvvələrin", fövqəltəbii hadisələrin üstünə atır. Ya da Karl Qustav Yunqun (Carl Gustav Yung) dediyi kimi; "Şüuraltının fərqində olmayan insan başına gələn hər şeyi taleh zənn edir". Yəni nəticə etibarilə, biz, fərqində olmadan, avtomatik şəkildə şüuraltı inanclarımız tərəfindən idarə olunuruq və inanclarımızı indi çox məşhur bir ifadə olan "travmalar" adlandırırıq. Budur travma; "yaşadığımız həyat təcrübələri nəticəsində zehnimizin çıxardığı nəticələrin (inancların) səbəbi". İş orasındadır ki, inanclarımız travmalardan daha çox həyatımıza təsir edir. Aradakı fərq ondan ibarətdir ki, travmaları birbaşa biz yaşayırıq, yəni öz təcrübə etdiyimiz hadisələr olur, inanclar isə təcrübəmizdən kənar, qulaqdan dolma bilgilər nəticəsində də yarana bilir..."

Klinik psixoloq qeyd edir ki, inanclarımız sonradan yarandığı üçün onları dəyişmək mümkündür: "Biz dünyaya gələndə heç bir inancımız olmur. Özgüvən, özdəyər, uğurlu olma inancı, ya da uğursuzluq qorxusu, hamısı sonradan yaranır. İnsan dünyaya gələndə cəmi 2 qorxu ilə doğulur: yüksək səs və yüksəklikdən yıxılmaq. Qalan hamısını sonradan öyrənir. Bu barədə ətraflı məlumat almaq istəyənlər 1920-ci ildə Amerikalı psixoloq Con Uotson (John Watson) tərəfindən aparılan "Balaca Albert təcrübəsi" (ing; Little Albert Experiment) ilə maraqlana bilərlər. İnanclarımızı dəyişmək üçün müxtəlif üsullar, terapiyalar mövcuddur. Mənim ən sevdiyim, həm öz həyatımda, həm də klinik fəaliyyətimdə istifadə etdiyim metod olan PSYCH-K® (say-ke oxunur) üsuldur.

"Psixanın açarı" mənasına gələn bu metod, həyatında qalıcı və dərin dəyişimlər etmək istəyənlər üçün idealdır. Həm elmidir, həm insanın öz daxili aləminə etdiyi mənəvi bir səyahətdir, həm də olduqca sadədir. Sizin illərlə narahat edən problemlərinizin, travmalarınızın mənbəyi olan şüuraltı inanclarınızı, stressinizi bir neçə dəqiqə ərzində asanlıqla dəyişdirməyinizi təmin edir. Özü də xatirələrə girmədən, yəni sizi incitmədən. Dünyaca məşhur hüceyrə bioloqu Dr. Brus Lipton "İnancın biologiyası" əsərində bundan bəhs edir. Üstəlik, tibbi bir metod olmadığı üçün, təhsiliniz nə olur olsun, hamı tərəfindən asanlıqla öyrənilə bilər".

Mirşahin Əlizadə həmçinin vurğulayır ki, travmalar inanclarımızı, inanclarımız isə həyatımızın 95% hissəsini idarə etdiyinə görə, nə kimi rolu olduğunu artıq hər kəs təsəvvür edə bilər. Zehni və fiziki sağlamlığımızdan kariyeramıza, münasibətlərimizdən şəxsi gücümüzə qədər çox geniş təsir dairəsinə malikdir. Lakin hər şeyi də travmaların üstünə atmaq olmaz: "İnsan həyatının məsuliyyətini dərk etməli, yaşam adlı bu səyahətdə sükanın arxasına özü keçməli, "qurban psixologiyası"ndan çıxmalıdır. Qədim yunan mifologiyasında "Sisifos" adlı bir şəxs olur. Tanrıları aldatdığına görə, sonsuza qədər bir qaya parçasını dağın zirvəsinə qədər itələyərək qaldırmaqla cəzalandırılır. Qaya isə hər dəfə zirvəyə çatdıqda, geriyə qayıdırg Bu mənasız proses, hər dəfə təkrarlanır... Ancaq bir müddətdən sonra Sisifos, artıq özünün bu absurd yaşamını qəbullanır və öhdəliyini etməyə davam edir. Onun bu absurd məsələni qəbullanması, tanrılar qarşısında Sisifosu daha da güclü edir. Çünki artıq qəbullanaraq mübarizə aparır, üsyan edərək deyilg

Odur ki, insan da yaşadıqlarına görə günahlandırmaq yerinə, həyatının öhdəliyini götürdükdə, xoşbəxt və mənalı yaşamış olur. Əsl güclü insan budur".

M.Əlizadə onu da bildirdi ki, travmalarımızın bizim cəmiyyətimizə, insanların inkişafına olan təsirlərini, fəsadlarını müzakirə etmək yerinə, məhdudlaşdırıcı inanclarımızın mənbəyində dayanan səbəbləri sağaltmaq lazımdır: "Xüsusilə də gəncləri maarifləndirmək lazımdır, onlar bilsinlər ki, öyrəndiyimiz inançlar həyatımıza, sonrakı nəsillərə və gələcəyimizə necə təsir edir. Qeyri-sağlam psixologiyası olan insan sağlam düşüncəli insan yetişdirə bilməz. Travmalarını sağaltmamış valideyn sağlam övlad yetişdirə bilməz. Ona görə maariflənmə mütləqdir. Cəmiyyət ayrı-ayrı fərdlərin icmasından ibarətdir. Hərə özü ilə məşğul olub düzəlsə, cəmiyyət də düzələcək. Bir söz var: "Hamı cənnətə getmək istəyər, ancaq heç kəs ölmək istəməz". Cəmiyyətin inkişafını istəyən insan, özünü inkişaf etdirməklə başlamalıdır".

Müsahibimiz deyir ki, gənclərin ailə həyatında travmalar nəticəsində qazandıqları məhdudlaşdırıcı inancların çox rolu var: "Bunu iki hissəyə ayıra bilərik: evlilik öncəsi və evlilik sonrası. Klinik təcrübələrimə əsasən deyə bilərəm ki, evlilikdən əvvəl gənclər özgüvənsizlik, uşağa yaxşı tərbiyə vermək üçün özünü yetərsiz hiss etmə, ailəni təmin edəcək qədər maddi gücə sahib olmama qorxusu, qıtlıq təfəkkürü və s. hisslər yaşayırlar. Bunun üçün də ümumiyyətlə evlənmək istəmirlər. Travmatik yaralarını sağaltmaq barəsində fikirləşməyənlər, bunun fərqində olmayanlar isə, sadaladığımız problemlərlə ailə həyatı qurur, sonrasında çox ciddi problemlərlə rastlaşırlar. Bu hallar ailələrin dağılmasına, xəyanətlərə, konfliktlərə, qeyri-sağlam uşaqların dünyaya gəlməsinə və boşanmalara qədər aparıb çıxara bilir.

Cəmiyyət fərdlərin cəmindən ibarətdir. Ümumiyyətlə, insan təbiət etibarilə neqativ düşünməyə meyllidir. Çünki şüuraltı zehnin vəzifəsi insanı həyatda saxlamaqdır. Bu səbəbdən, təhlükələri dərhal görməlidir. Ona görə də radarlarımız daim neqativi tutmağa açıqdır. Digər bir səbəb isə, ailədən gələn mənfi düşüncələrdir. 0-6 yaş arası çevrəmizdə danışılanlar bizim "düşüncə genetikamızdır". Biz düşüncələrimizi genlərimizlə deyil, uşaqlıqdan bəri ətrafımızda gördüyümüz, eşitdiklərimiz bilgilərlə qazanırıq.

İnsan, sahib olmadığı bir potensialı yarada bilməz. Biz maşın sürməyi, rəsm çəkməyi, musiqi ilə məşğul olmağı öyrənir, ya da xüsusi bir bacarığa yiyələniriksə, bunu mümkün olduğu üçün edirik. Mən düşünürəm ki, bizim cəmiyyət pessimist deyil, əksinə, şad günlərini çox yaxşı şəkildə qeyd etməyi bilən cəmiyyədir. Ola bilər ki, müəyyən mövzularda pessimist yanaşa bilərik, bu da həyatın təbii axışının bir hissəsidir. Müsbət düşünmək də, mənfi düşünmək də insan təbiətinə xas olan xüsusiyyətlərdir, hər şey hər zaman mükəmməl ola bilməz. Həyatın ləzzəti də burdadır. Onun hər anından zövq almaq. Bir gün gələcək, hamımız geriyə dönüb gəncliyimizə baxanda, bəlkə də yaşadığımız həyati qayğıları şirin xatirələr olaraq yada salacağıq.

Gözəl xalqımız, cəmiyyətimiz var, arzu edirəm ki daim balanslı yaşayaq; həm fiziki, həm zehni, həm də mənəvi olaraqg"

**Aynurə MUSTAFAYEVA**

Hürriyyət
Şəhid
SİZİN ÜÇÜN QƏZET
№03 (3342) 21 Yanvar / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Qəhrəmanlar unudulmur

## Azərbaycanın Milli Qəhrəmanı, jurnalist Salatın Əsgərovanın anım günü qeyd olundu





**Masallı rayon Mərkəzi Kitabxanasının növbəti tədbiri Azərbaycanın Milli Qəhrəmanı, jurnalist Salatın Əsgərovanın anım gününə həsr olunmuşdu.**

Tədbirdə çıxış edən kitabxananın əməkdaşı Gülər Piriyeva dedi: - Azərbaycanın ilk şəhid qadın jurnalisti Salatın Əsgərovanın erməni separatçıları tərəfindən qətlə yetirilməsinin 34 ili tamam oldu. O, 90-cı illərdə Qarabağın qaynar bölgəsindən hazırladığı reportajlar vasitəsilə xalqımızın, eləcə də mətbuat ictimaiyyətinin böyük rəğbətini qazanmışdı. Salatın Əsgərovanın şəhidlik məqamına ucalmasından uzun illər keçməsinə baxmayaraq hər bir azərbaycanlı tərəfindən təkcə peşəkar jurnalist kim deyil, həm də vətənpərvər xanım olaraq indi də böyük ehtiramla xatırlanır. O, əbədi olaraq şərəfli ölümü ilə milyonların ürəyində özünə əzəmətli abidə ucaldıb.

"Vətən, torpaq naminə canından keçən Salatın Əsgərova Qarabağ müharibəsi haqqında həqiqətlərin üzə çıxmasında, dünya ictimaiyyətinə obyektiv məlumatların vaxtında çatdırmasında böyük xidmətlər göstərmişdir" - deyən kitabxananın digər əməkdaşı Həbibə Hüseynova da vurğuladı ki, 1991-ci il yanvarın 9-da Salatın Əsgərovanın da içində olduğu maşın erməni terrorçuları tərəfindən şiddətli atəşə tutulmuş, bir neçə döyüşçü ilə birlikdə şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli fərmanı ilə Salatın Əziz qızı Əsgərovaya ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.



Astara rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş tədbir isə "Zəfər tarixi" adlanırdı. Rayondakı P. Həsənov adına Çay-oba kənd tam orta məktəbinin müəllim və şagirdlərin qatıldığı tədbirdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Kübra Səmədova bildirdi ki, Azərbaycan əsgəri qorxmazdır, ölümün üzünə dik baxaraq düşmənin qarşısına çıxmağı bacaran igiddir. Təkcə Mübariz İbrahimovu xatırlatmaq kifayətdir ki, hər kəsdə Azərbaycan əsgəri haqqında xoş təsəvvür yaransın. Şanlı Azərbaycan Ordusu bizim iftixar yerimiz, qürur mənbəyimiz və fəxrimizdir. Qarabağımızı azadlığa çıxaran qalib ordunun, qalib millətin dilində daim səslənəcək "Qarabağ Azərbaycandır!"

Sonra "Astaranın 44 şəhid övladları" mövzusunda film göstərildi.

Yekunda tədbir iştirakçıların rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgiyə baxışı oldu.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Vətən onu unutmur...



**44 günlük haqq savaşımızda sinəsini doğma Azərbaycana sipər edib ölümsüzlüyə qovuşan qəhrəmanlardan biri də şəhid Masim Hafiz oğlu Qurbanovdur. Bu Vətən sevdalısı odlardan, alovlardan keçərək, igidliyi ilə şanlı bir tarix yazıb.**

Odur ki, Masim 19 yaşında bütöv bir xalqın qəhrəmanlıq simvoluna dönərək, əbədi bir ömür qazanıb. İndi bizim üçün iftixar mənbəyi, qürur yeri olan Masimin doğum günü Masallı camaatı tərəfindən böyük ehtiramla qeyd olundu.

Vətən, torpaq sevgisi ilə şəhidlik zirvəsinə ucalan Masim Qurbanov Masallı rayonunun Ərəb kəndində dünyaya göz açıb. 2008-2017-ci illərdə Masallı rayonu Ərəb kənd tam orta məktəbində təhsil alıb. Yağıdan qisas almaq məqsədilə ordu sıralarında Vətənin keşiyində durub. Nümunəvi xidməti onu zabitlərin, əsgərlərin sevimlisinə çevirib.

2020-ci ilin sentyabrın 27-də başlanan Ikinci Qarabağ müharibəsinə Masim Qurbanov könüllü gedib. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı istiqamətlərində gedən döyüşlərdə yağıya qan qusdurub. 2020-ci ildə oktyabrın 30-u Qubadlı istiqamətində gedən ölüm-dirim savaşında düşmən gülləsinə tuş gələrək əbədiyyət adlı dünyasına qovuşub. Şəhidin nəşi 10 yanvar 2021-ci il tarixdə doğma Ərəb kənd qəbiristanlığında canından əziz bildiyi torpağa tapşırılıb. Ölümündən sonra şəhidimiz dövlət tərəfindən "Vətən uğrunda", Qubadlının, Cəbrayılın azadlığına görə və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Onu da bildirək ki, şəhid Masimin atası Hafiz Qurbanov Birinci Qarabağ müharibəsi döyüşlərinin iştirakçısı olub və II qrup Qarabağ müharibəsi əlilidir.

**Zəfər ORUCOĞLU**

# Qəhrəmanlıq dastanı yazan Mirxəyal

**44 günlük haqq savaşımızda Vətən və millət yolunda son damla qanına qədər yağıya qarşı döyüşüb şəhidlik zirvəsinə ucalan qəhrəman oğullardan biri də Mirxəyal Kərimzadədir. Azərbaycanın yeni, şanlı tarixinə adını yazan Vətən sevdalısının 26 yaşı tamam oldu. Doğum günü münasibətilə uyuduğu müqəddəs torpaq ziyarət edildi, məzarının önünə gül dəstələri qoyuldu.**



Mirxəyal Kərimzadə 1999-cu ildə Lənkəran şəhərində anadan olub. Orta təhsilini Lənkəran şəhər 9 saylı və 7 saylı tam orta məktəblərində alıb. Erməni dığalardan qisas almaq məqsədilə ordu sıralarına gedib. Vətənini göz-bəbəyi kimi qoruyub, 2018-ci ildə hərbi xidmətini ləyaqətlə başa vurub. Sonra bir müddət kompüter texnologiyaları mütəxəssisi kimi çalışmağa başlayıb.

Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətində gedən ağır döyüşlərdə vuruşub. Xocavəndin Yuxarı Veysəlli kəndinin alınmasında xüsusi igidlik göstərərək düşmənə sarsıdıcı zərbələr endirib və xeyli sayda canlı qüvvəsini məhv edib.

3 noyabr səhər saatlarında Xocavənd uğrunda gedən ağır müharibədə o, yaralanmış komandirini və bir neçə döyüş yoldaşını döyüş meydanından çıxararaq onlara ilk tibbi yardım göstərib. Zirehli üst geyimini çıxararaq, yaralı komandirinin üstünə atıb, ona ikinci həyat verib və yenidən özü döyüşə qatılıb. Bir neçə dəqiqə sonra düşmən tərəfindən açılan atəş Mirxəyalın qarın boşluğuna tuş gəlib, qəhrəmancasına şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşub .

M. Kərimzadə ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Vətən uğrunda" medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU**



# Zəlimxan Yaqub poeziyasının gücü...

**Torpaq, yurd, Vətən sevgisi hər bir insanda o, dünyaya göz açanda doğulur. Və bu müqəddəs hisslər son nəfəsinədək onu tərk etmir. Bu sevgi, məhəbbət bizə ruhumuz qədər yaxındır, doğmadır...**

***Qüvvətim, zorum torpaq,***
***Ocağım, qorum torpaq,***
***Səndə bir iz qoymasam,***
***Alışsın gorum torpaq!***

Bu misralar sevimli şairimiz Zəlimxan Yaqubundur. Bütün varlığı ilə sinəsində ölçüyəgəlməz torpaq, Vətən sevgisi gəzdirən Zəlimxan Yaqubun.

Şairin uzun illər - təxminən 35 il əvvəl işıq üzü görmüş ”Ziyarətin qəbul olsun” toplusu qarşımdadır. Topludakı şeirləri oxuduqca heyrətə gəlirəm. Mənim indiki yaşım qədər əvvəllər yazılmış bu şeirlər bu günümüzdə çox aktualdır, zamanla səsləşir.

Zəlimxan Yaqub bir şair kimi öz şeirlərini ürəyinin odunda elə bişirib yazıb ki, orada çiy misra tapmaq çətindir. Bunu kitabın ilk şeiri olan ”Ağsaqqal sözü”ndə şairin özü də etiraf edir:

***Oğul, elə saxla qəlbi, ürəyi,***
***Göy kimi boşalıb dolandan olsun.***
***Bir qalın kitab var, bir qalan kitab***
***Yazanda elə yaz kitabını sən,***
***Qalından olmasın, qalandan olsun.***

Kitabın ilk fəslində şairin ”millətimizin dar günü - 20 yanvar günü”nə həsr olunmuş şeirləri toplanıb. Bütün xalqımız kimi şair də bu qara günləri çox ağrılı-acılı yaşayıb, bu qanlı faciəni törədənlərə nifrəti ərşə qalxıb.

”Torpaq üstə can verənlər, yatır torpaqlar altında; şəhidi olmayan torpaq, qalar tapdaqlar altında” deyən şair “qətiyyətlə tanımışam mənə dağlar çəkənləri”... qənaətinə gəlir.

Qanlı faciədə həlak olmuş hər bir soydaşımızın mərdliyi, cəsarəti, ölümün gözünə dik baxması şairi çox təsirləndirir:

***Ruhlarınız önündə hər gün***
***səcdə qılmışam,***
***Sanıram hər qəbrdə özüm***
***basdırılmışam.***

Ümumiyyətlə, şairin bu bölmədə topladığı şeirləri bu qan yaddaşını heç vaxt unutmamağa səsləyir. Çünki bu faciə bir millətin yox, bütün millətlərin faciəsidir.

***Şairin özü demişkən:***
***Yüz milləti yaraladı,***
***Bir millətə dəyən güllə.***

Əsl söz sərrafı olan Zəlimxan Yaqub bu kədərli hissləri nikbin notlarla bitirir. İnanır ki, xalqın iradəsini toplarla, tanklarla qırmaq olmaz. Sonda həmişə haqq-ədalət qalib gəlir.

İgid ərənləri, mərd oğulları olan torpaq basılmaz.

***Heç kəs oynamasın qoy,***
***Qəzəbim nifrətimlə.***
***Tarixlərdə bəlliyəm,***
***Bəşərə hörmətimlə.***
***Qanlı silahımla yox,***
***Namusum, qeyrətimlə.***
***Təpədən dırnağadək,***
***Silahlı əsgər mənəm.***

Kitabda şairin müxtəlif mövzularda qələmə aldığı şeirləri də yer alıb və onların hər birində şairin həyata münasibəti, sevgisi, məhəbbəti tərənnüm olunub.

***Şair bunu belə etiraf edir:***
***Yaşıldı, aldı bilmərəm,***
***Tirmədi, şaldı bilmərəm,***
***Kimə nə qaldı bilmərəm,***
***Mənə sevdiklərim qədər.***

Və yaxud şairin ” Ölləm” şeirinə nəzər salaq. İndi dillər əzbəri olan bu misralarda şair necə də səmimidir:

***Aran da, yaylaq da doğmadır mənə,***
***Qəlbimi dağlara verməsəm ölləm.***
***Yazda çiyələyi, yayda yarpızı,***
***Payızda moruğu dərməsəm ölləm.***

***Barmağı pərdədə, mizrabı teldə,***
***Turacı meşədə, sonanı göldə,***
***Kəkliyi qayada, ceyranı çöldə,***
***Qartalı zirvədə görməsəm ölləm.***

Zəlimxan Yaqub üçün bir şair kimi mövzu qıtlığı yoxdur. Onun üçün dünya sözün həqiqi mənasında poeziyadır. Və böyük şairimiz adı həqiqətlərə, müşahidə etdiklərinə elə dərin və poetik don geydirir ki, heyran qalırsan. Baxın:

***Torpaq duzdu, vətən çörək,***
***Zirvəyə bax, coşsun ürək,***
***Dağlar şeiri kimə gərək,***
***Dağlar kimi yazılmasa.***

***Dağılmaz dərdim, azarım,***
***Eldən düşməsə güzarım,***
***Od tutub yanar məzarım,***
***El içində qazılmasa!***

İndi şeir yazan, şairlik eşqinə düşənlər çoxdur. Yazırlar, heç mürəkkəbi qurumamış kitabları çap olunur. Heç bir misraları da yadda qalmır.

Şair Zəlimxanınsa öz dünyası, söz dünyası var. Bu dünya hikmətlə doludur. Hər gün oxusan da bu şeirlərdən ayrıla bilmirsən, çoxları dillər əzbəridir, mahnılar bəstələnib, yaddaşlara həkk olunub. Bir şair kimi bu, Zəlimxan Yaqubun xoşbəxtliyidir. Çünki Zəlimxan Yaqub şeir yazmaq xatirinə şeir yazmır. O, ürəyinin atəşi püskürəndə, onu dilləndirəndə şeir yazır.

***Dərd daşıdım, qəm yüklədim şələmə,***
***Şeirə döndü səsim düşdü aləmə,***
***Ey Zəlimxan yaxşı sarıl qələmə,***
***Qalsa yenə bu nəğmələr qalacaq!***

Kitabda şairin poemaları da yer alıb. Şairin ”Göyçə dərdi”, ”Cavidin qız balası”, ”Kökündən qopan ağac”, ”İnsan” poemaları da maraqla oxunur. Bu poemaların hər misrasında söz sərrafı Zəlimxan Yaqubun ürək döyüntüləri duyulur, eşidilir. ”Cavidin qız balası” poeması böyük ədib Hüseyn Cavidin qızı Turan Cavidə həsr olunub. Bu poemanı həyəcansız oxumaq olmur. Cavidin sonbeşiyi Turan - Cavidin qız balası. Bu körpə qızcığazın nisgillərini, qəmli həyatını belə dolğun şəkildə canlandırmağı ancaq Zəlimxan Yaqub kimi söz ustadları bacarardı. Hüseyn Cavidin dəhşətli sürgün həyatı, burda qoyub məcburən ayrıldığı doğmaları taleyi barədə düşüncələri çox təsirlidir:

**Düşünür, hey düşünür,**
**Görən Turan həkimlik**
**məktəbinə getdimi?!**
**Ərtoğrul məktəbini**
**Arzu elədiyidək, əlaçı bitirdimi?**
**Görəsən harda qaldı**
**Müşkünazın axırı,**
**Onun çiyninə düşdü qayğıların ağırı.**

Atasızlıq qurbanı olsa da, bu son dərəcə ağır itki Turanın qamətini əysə də, məğrur iradəsini qıra bilmədi. Turan yaşadı və atasının arzularını yaşatdı.

***Oldu ismət qalası,***
***Oldu qeyrət qalası***
***Cavidin cəfakeşi,***
***Cavidin qız balası!***

Elinə, yurduna bağlı əvəzsiz şairimiz Zəlimxan Yaqubun dünyasını vaxtsız dəyişməsi çox ürəklərə dağ çəkdi. Bu qədər oxucu sevgisi, oxucu məhəbbəti qazanmaq ölümsüzlük deyilmi?!

***Bu da şairin həyat amalı:***
***Nə alim doğuldum, nə də ki, dahi,***
***Peşman da deyiləm, gələn günümə.***
***Əliboş aparma məni, İlahi,***
***Doğulan günümdən ölən günümə!***

**Ruhu şad olsun!!!**

**Fuad BİLƏSUVARLI**
**Şair, jurnalist**



Xəstəxananın həyatinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa "yazıq oğlum nə gün gördü ki?" deyə süni şəkildə ağlamısındı. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz insanlar belə, asanlıqla sezərdi.



# Artıq adam

Məhkəməyə yalnız Azadın dostları gəlmişdi. Qardaşı və valideynləri məhkəməyə belə, gəlməyi özlərinə əziyyət bilmişdilər. Azad özünü qəhrəman kimi hiss edirdi. Düşünürdü ki, bu gündən hamı ondan danışacaq, onun fədakarlığı qardaşının və valideynlərinin ona olan münasibətində fundamental dəyişiklik yaradacaq, ona bu günə kimi göstərmədikləri hörmət və qayğı göstərəcəklər. Hətta ola bilsin ki, qardaşını sevdikləri kimi onu da sevə biləcəklər.



**Xəstəxananın həyatinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa "yazıq oğlum nə gün gördü ki?" deyə süni şəkildə ağlamısındı. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz insanlar belə, asanlıqla sezərdi.**

**Bəzənib-düzənmiş, ətrafdakılara naz satmaqla məşğul olan qız, deyəsən bacısı idi, sanki anasına həm cavab, həm təskinlik, həm də özlərinə bəraət qazandırmaq kimi "gunah özündədir, az içərdi", deyə mızıldandı.**

**Digər bir cavan qadın sakitcə başını aşağı salıb, dərin xəyallara getmişdi. Üzündə dərin bir peşmançılıq hissi vardı. Sanki bu günədək etdklərinin yanlış olduğunu indi anlamışdı. Amma artıq çox gec idi. Sonrakı peşmançılıq heç vaxt fayda vermir. Bu qadın, deyəsən, xəstənin həyat yoldaşı idi. Yanında 7-10 yaşlarında iki oğlan uşağı dayanmadan göz yaşı axıdırdılar. Hamının başı söhbətə qarışdığından onlara təsəlli vermək heç kəsin yadına düşmürdü.**

**Digər yaxın-uzaq qohumlar da xəstədən daha çox onun ana-bacısının əziyyət çəkərək xəstəxanaya gəlmələrindən narahat olduqlarını ehyam vururdular.**

***(Əvvəli ötən saylarımızda)***

"Mənim pulum, tanışlarım, hörmətim yoxdur. Amma qardaşıma qurban edəcək bir canım var. Onun günahını mən üzərimə götürəcəyəm. Maşını mənim sürdüyümü, qəzanı da mənim törətdiyimi etiraf edəcəyəm. Mənim həbsxanada, ya azadlıqda qalmağım çox da önəmli deyil. Amma qardaşımın gələcəyi məhv ola bilər. Eybi yox, mən həbsxanaya gedərəm, qardaşım hakim işləyəndə mənim azadlığa çıxmağıma kömək edər", - Azad dedi. Onun dedikləri ailənin üzərindən böyük bir yükü götürdü. Kədər-qəm yerini sevincə verdi. Azadın həbs olunması heç kimdə narahatlıq yaratmırdı, buna görə də məsələni Azadın dediyi kimi yoluna qoydular. Tezliklə məhkəmə oldu və Azad "içkili vəziyyətdə, sürücülük hüququ olmadan qəza törədərək bir nəfərin ölümünə səbəb olduğundan" on il həbs cəzası aldı.

Məhkəməyə yalnız Azadın dostları gəlmişdi. Qardaşı və valideynləri məhkəməyə belə, gəlməyi özlərinə əziyyət bilmişdilər. Azad özünü qəhrəman kimi hiss edirdi. Düşünürdü ki, bu gündən hamı ondan danışacaq, onun fədakarlığı qardaşının və valideynlərinin ona olan münasibətində fundamental dəyişiklik yaradacaq, ona bu günə kimi göstərmədikləri hörmət və qayğı göstərəcəklər. Hətta ola bilsin ki, qardaşını sevdikləri kimi onu da sevə biləcəklər.

Həbsxana həyatı Azadın düşündüyündən daha ağır idi. Orada verilən yeməyi yeyə bilmirdi. Əvvəllər ayda bir dəfə yanına gələn həyat yoldaşı indi iki-üç aydan bir gəlirdi. Valideynləri isə böyük qardaşına problem olar deyə, bir bəhanə ilə həbsxanada ona baş çəkmirdi.

Azad yavaş-yavaş depressiyaya düşürdü. Ozünü tənha hiss edirdi. Yalnız uşaqlıq dostu onu tərk etməmişdi. İmkanı olmasa da həftədə bir dəfə onun yanına gəlir, yemək gətirirdi.

Azad həbsxanada kəskin arıqlamışdı. Digər vərəmli məhbuslardan vərəmə yoluxmuşdu. Müalicə üçün çoxlu pul lazım idi, amma heç kəs ona sahib çıxmırdı. Böyük qardaşı sanki heç əvvəlcədən qardaşı olmamış kimi özünü aparır, uzaqdan uzağa olsa da onunla maraqlanmırdı.

Qardaşının artıq hakim işlədiyini eşitmişdi. Amma onun azadlığa çıxması ilə bağlı heç bir cəhd etmirdi. Azadın həyat yoldaşı ilə bağlı dostundan eşitdiyi xəbər də onu birdəfəlik məhv etmişdi. Həyat yoldaşı, "məni qoyub həbsxananı seçmisənsə, mənə sənin kimi ər lazım deyil", deyib boşanmaq qərarı vermişdi. Hətta Azad esitmişdi ki, həyat yoldaşı rəsmən boşanmadan artıq özünə yeni bir sevgili tapmış, günlərini onunla eyş-işrətdə keçirir.

Azadın yeganə ümidi oğlanlarına idi. Onlar da çox kiçik idilər, əllərindən bir şey gəlmirdi. Nə vaxta böyüyələr, nə vaxta Azada kömək edələr, xəyaldan başqa bir şey deyildi. Bir tərəfdən xəstəlik, digər tərəfdən ona qarşı olan etinasızlıq Azadı içindən yeməyə başlamışdı. Hətta özünə qəsd etməyi belə, ağlından keçirsə də, sonra uşaqları gözünün qarşısına gəlmiş, "yox ölümümlə onları üzməyə haqqım yoxdur", deyə fikrindən vaz keçmişdi.

Fikir Azadı bir dəqiqə belə sərbəst buraxmırdı. Bir dəfə adəti üzrə həbsxananın həyətində bir kənara çəkilib, dərin fikirlərə qərq olmuşdu. Bu vaxt salam-kəlamı olan dustaqlardan biri ona yaxınlasdı: "Qardaş, yüz fikir bir borcu ödəməzg Bunun bir yolu var, elə yaşayasan ki, həyatın etibarsız üzünü görməyəsən". Azad mexaniki olaraq, "O necə olur" suali verdi. Məhbus yoldaşı ona bir siqaret uzatdı: "Al, bütün qəm-kədərin düşməni budur". Azad düşünmədən siqareti aldı, çəkməyə başladı. Birdən-birə canına xoş bir rahatlıq gəldi. Ətrafını saran qaranlıq rəngli bir aləmə çevrildi. İndiyə kimi ona çətin gələn məsələlər indi çox asan görünməyə başladı. İlk dəfə idi ki, Azad xoşbəxtlik duyğusunu yaşayırdı.

Həmin gündən Azad narkotik qəbul etməyə başladı. Bu barədə çox sonralar dostuna da dedi. Dostu nə qədər, "bu yola düşmə, bu yolun sonu yoxdur", desə də Azad "zatən, mənim yaşamağım heç kimə, hətta özümə belə lazım deyil", - dedi. Dostu çox israr etsə də, urəyində ona haqq qazandırdı. Zatən valideynləri və həyat yoldaşı onun varlığını unutmuşdular. Fədakarlığı müqabilində qardaşı borclu qalmasın deyə onun ölümünü arzulayırdı...

Nəhayət, həbsxanada qurulan məhkəmələrin birində ağır xəstə olmasını nəzərə alıb, qalan cəzasını şərti cəza ilə əvəzləyib Azadı həbsdən azad etdilər. Azadlığa çıxmaq sevinci Azadı həbsxananın qapısında tərk etdi. Onu qarşılamağa heç kim gəlməmişdi. Gedəcəyi yer də yox idi. Valideynləri çoxdan onu unutmuşdular. Həyat yoldaşı qeyriqanuni başqa kişilərlə yaşayırdı. Azada küçə həyatını seçməkdən başqa yol qalmamışdıg

Azad həmin gündən özü kimilərlə şəhərin uçuq-sökük evlərində, zibil atılan dalanlarda gecələməyə başladı. Dostu onu tapıb həkimə apardı. Dövlət hesabına vərəm və şəkər xəstəliyindən mualicə almasına yardımçı oldu. Azada xəstəxanada mütəmadi olaraq dövlət hesabına xeyli bahalı dərman yazırdılar... Azad apteklərin biri ilə danışıb, həmin dərmanları yarı qiymətinə aptekə satırdı. Aldığı pulu isə yalnız övladlarına xərcləyir, onları əyləncə yerlərinə aparır, onlara əyin-baş alırdı. Uşaqları dəfələrlə onun harda yaşamasını soruşsalar da, o, yerini bildirmirdi. Hətta bir dəfə böyük oğlu "biz səninlə qalmaq istəyirik" desə də Azad, "yox, ananızın yanında qalın, mən qalan yer uzaqdır, məktəbə gedib-gəlmək sizə çətin olar", deyərək başından etmişdi.

Azad digər "bomj" tanışları ilə birlikdə narkotik və spirtli içki qəbul edirdi. Yavaş-yavaş daxili orqanları sıradan çıxırdı. Qara ciyərində serroz ildırım sürəti ilə inkişaf edirdi. Ona kömək edəcək kimsə yox idi. Zatən, o, içində çəkdiyi fiziki ağrıları bir o qədər hiss etmirdi. Onu əzən, məhv edən mənəvi ağrılar idi. Bu ağrı qardaşının, bacılarının, ata və anasının ondan imtina etmələri, həyat yoldaşının ondan boşanmadan başqa kisilərlə oturub-durmasından əmələ gəlmişdi. Azadın yaşamağa gücü qalmamışdı. O, hiss edirdi ki, tezliklə həyatdan gedəcək. Bu da onun yeganə ümid və sevinc mənbəyi idi. O, yaşamağa o qədər nifrət edirdi ki, ölüm onun üçün həyatının ən böyük hədiyyəsi olacaqdı.

Bir gün küçədə gecələyən yoldaşları səhər Azadın oyanmadığını gördülər. Nə qədər çalısdılarsa, Azad ayılmadı. O, çətinliklə nəfəs alırdı, rəngi meyit rəngində idi. Verilən heç bir suala cavab vermirdi. Yoldaşları onun ağır vəziyyətdə olduğunu başa düşdülər və təcili tibb yardıma müraciət etdilər. Xəstəxanaya yerləşdiriləndə artıq çox gec idi. Azada heç kim kömək edə bilməzdi. O, ağır kamotoz vəziyyətdə can vermə növbəsini gözləyirdi. Elə bil Əzrayıl da, valideynləri kimi, onu tərk etmişdig Ölüm növbəsi ona çatmırdı ki, çatmırdı. Bütün həyatı boyu özünün bu dünyada artıq olduğunu düşünən Azad ölüm yatağında bu cansıxıcı dünyadan köçəcəyi anı gözləyirdi. Onun həyətdə qohum-qardaşının toplanmasından, həyat yoldaşının dərin peşmançılığından, övladlarının onun üçün tökdükləri göz yaşlarından və dostunun onun üçün hər cür fədakarlığa hazır olmasından xəbəri yox idi. Bəlkə də son nəfəsində bunlardan xəbəri olsaydı, ölümünü bu qədər istəməzdig

**AZAD**


Allahverdi Eminov

# Tarixin qayıdışı: facialər və dəhşətlər

## (Telman Orucovun yaradıcılığı haqqında düşüncələrim)

**Mənim ensiklopedik informasiyaya malik və mənimsədiklərini yazıya alıb geniş oxucu auditoriyasına çatdıran Telman Orucovla "üçüncü" görüşüm olacaq-dır. Belə bir planım yox idi, onun nüfuzlu "525-ci qəzet"də silsilə məqalələrini oxuyanda və zəngin təəssüratla ayrılanda qərarımı dəyişdim. Elmi dərəcəyə və elmi vəzifəyə sahib olmaq şərt deyil. Gizlin deyil ki, elmlər nazirləri və doktorlarımızın, habelə, professorlarımızın, akademiklərimizin sayı həndəsi silsilə ilə çoxalmaqdadır. Amma Vətən elmimiz yerində saymaqdadır. Sovet dönəmindən sonrakı 20-25 il civarında Yusif Məmmədəliyev, Azad Mirzəcanzadə, Validə Tutayuq, Cəbrayıl Hüseynov, Əhməd Seyidov, Firudin Köçərli, Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə yetişməmişdir. Mən bu cərgəyə həmyerlimiz, azərbaycanlı Lüt-vi-Zadəni də məmuniyyətlə daxil edərdim. Professorlarımız, akademiklərimiz məhsuldar işləyirlər, saysız elmi məqalələr, kitablar çap etdirirlər, eləsi var hər həftədə, hər ayda geniş həcmli məqalələr, hətta kitablar ortaya qoyurlar.**

***(Əvvəli ötən sayımızda)***

İ.Stalin "İslahatlar" pərdəsi altında siyasi günahların müəllifinə çevrildi. Belə ki, Stalin həm də ordu zabitlərinin, diplomatların, ziyalıların və saysız - he-sabsız adi vətəndaşların təmizlənməsini həyata keçirdi, onları sıradan çıxardı. Təq-ribən 8 milyon rusiyalı Sibirdəki məcburi əmək düşərgələrində oldu. Təqibləri əsaslandırmaq üçün "ideoloji" və hüquqi müddəalar da irəli sürülürdü. Maksim Qorkinin "Düşmən təslim olmursa, onu məhv edirlər" sözləri "düşmən" sayılanlara qarşı mübarizənin devizinə çevrilmişdi. Böyük məhkəmə proseslərində baş itti-hamçı kimi çıxış edən A.Y.Vişinski saxta mühakimələrə haqq qazandırmaq üçün "Etiraf sübutun çariçısıdır" müddəası ilə yeni hüquqi prinsip irəli sürmüşdü. Bu çariçanın heç iyrənc fahişəliyi də nəzərə alınmırdı, axı etirafların əksəriyyəti işgən-cə vermək yolu ilə əldə edilirdi. Bütün bunlara görə Stalini kütləvi qətllərin ən bö-yük təşkilatçısı adlandırırlar. Bəzi Qərb ziyalıları isə əksinə, Stalinin ölkəyə rəh-bərlik fəaliyyətini təqdir edərək, SSRİ-ni "yeni sivilizasiya" kimi qiymətlən-dirirdilər. İosif Stalinin müsbət dəyişiklikləri də yox deyildi. Telman Orucov yazır ki: Əyintilərə baxmayaraq, cəmiyyət dayanmadan irəliyə doğru inkişaf edirdi. Təhsil yeni, yüksək səviyyəyə qaldırıldı, bu vaxt mühəndisliyə həvəs olduqca böyük idi. Çox sayda yaşlı adamların savadsızlığını ləğv etmək üçün geniş "lik-bez" kursları şəbəkəsi yaradılmışdı. Qısa müddətdə nəhəng bir ölkədə savadsızlıq bütünlüklə ləğv edilmişdi. Çox sayda ali məktəblər açılırdı. Elm də sürətlə inkişaf edirdi.

Stalin imperialist dairələrin, ölkəsinə hücum təhlükəsinin daim mövcudlu-ğunu nəzərə alaraq, hərbi - sənaye kompleksinin inkişafı məsələlərini də diqqətdə saxlayırdı. Yeni Ural-Kuzbas sənaye kompleksinin yaradılması, İkinci Dünya mü-haribəsində metallurgiya kombinantlarının və daş kömür şaxtalarının bol olduğu Ukrayna ərazisinin almanlar tərəfindən işğal edildikdən sonra Şərqə köçürülmüş hərbi zavodlarla birlikdə, ordunu hərbi - texnika, silah - sursatla təmin etməkdə böyük rol oynamışdı.

Stalin öz ölkəsinə qarşı Hitler təcavüzünün baş verəcəyi ehtimalını yaxşı bilirdi, çünki fürer bolşevizmi məhv etmək niyyətini heç vaxt gizlətməmişdi. Lakin SSRİ-nin qarşıdakı müharibəyə hazırlaşması üçün nə qədər mümkünsə, çox vaxt udmaq olduqca vacib idi. Ona görə də SSRİ 1939-cu ilin avqustunda Almaniya ilə bir-birinə hücum etməmək barədə pakt imzaladı. General Şarl de Qollun sonralar dediyi kimi, Stalin ölkəsinə qarşı müharibədən böyük ziyan çəkməkdənsə, işğala şərik olmaq ona daha faydalı idi. Bu həqiqətən baş verdi ədalət naminə İ.Stalinə N.S.Xruşşovun on illik hakimiyyəti dövründə çirkablar da atıldı, onun iti ağılı, zəkalı dünyagörüşü, ölkəni "təkbaşına" idarə etməsi bir sıra xruşşovçular tərə-fin-dən pislənildi, yalanlar quraşdırıldı. Halbuki, belə deyildi. Telman Orucov faktlara söykənərək məsələyə aydınlıq gətirmişdir: "İkinci Dünya müharibəsindən xeyli əvvəl Moskvaya gəlmiş, Bernard Şou da daxil olmaqla nüfuzlu ingilislərlə söhbət zamanı, onların içərisində olan ledi Astor Stalindən soruşur ki, niyə o, Lloyd Jorju ölkəsinə dəvət etmir, onunla yaxşı münasibətlər qurmağa cəhd etmir. Stalin cavabında bildirir ki, axı o, bunu necə edə bilər ki, Lloyd Jorj 1918-ci ildə gənc Sovet Rusiyasına müharibə elan etmişdi. Çorçillin ən kəskin rəqiblərindən biri olan bu



qadın deyir ki, yox, bu, belə deyil, müharibəni Çorçill başlamışdı, burada Lloyd Jorjun heç bir günahı yoxdur. O, liberaldır, Sizə yaxındır, Çorçillə qaldıqda isə o, artıq siyasi səhnədən silinmiş kimidir. Buna etiraz edərək Stalin demişdir ki, bu belə deyil, necə ola bilər ki, hökumətə başçılıq edən adamın müharibəni başlamaq-dan heç bir günahı olmasın, günah ancaq hökumətin bir üzvünün üzərinə yıxılsın. Digər tərəfdən də ingilis xalqı təhlükə hiss edən kimi yenə Çorçillə ehtiyac duya-caq, onu hesabdan belə tez silməyin. Stalin Çorçilli hərbi ata bənzətmişdi, müha-ribə başlandıqda bu ata böyük ehtiyac yaranır. Sonrakı hadisələr bunu bütünlüklə təsdiq etdi, müharibəyə başlanandan 9 ay sonra Çorçill baş nazir və müdafiə naziri təyin edildi.

Tehran konfransında digər bir maraqlı hadisə də baş vermişdi. Nəhayət, 1944-cü ildə II cəbhənin açılması barədə Üçlük razılığa gəlmişdi. Gələcək nəhəng əməliyyatın planı müzakirə edildikdə, Uinston Çorçill, görünməmiş aviasiya qüv-vələrindən və beş minə qədər gəmidən ibarət amerikan - ingilis desantı İngiltərədən start götürüb, La Manş boğazından Normandiyaya keçməli idi, əməliyyat barədə Roma Papasının da rəyini öyrənməyi lazım bildi. İosif Stalinə bu təklif gülünc göründü və ironiya qaydasında Çorçilldən soruşdu: - Yaxşı, Papanın neçə diviziyası vardır? İstehzalı sualın öz təklifinə qarşı narazılıq əlaməti olduğunu anlayan İngiltərə Baş naziri bu mövzuda söhbəti davam etdirmədi. Çünki o, şübhə etmirdi ki, Vatikan sarayını, vaxtilə Mikelancelonun dizaynı əsasında tikilmiş rəngli zolaqlı formada qoruyan isveçrəli mühafizələrdən başqa, Papanın heç bir silahlı dəstəsinin olmamasını Stalin yaxşı bilir. Sonralar Stalinin Vatikan barədə is-tehzası Papaya çatdırılanda, o demişdi ki, Stalin köçüb, dünyanı tərk edəndə, göy-lərə üz tutanda, bizim diviziyaları öz gözləri ilə görəcəkdir.

U.Çorçillə gəldikdə II Dünya müharibəsində İ.Stalinlə "dil" tapmış, faşist Almaniyasının məğlubiyyətində rolu olmuşdur. I Dünya müharibəsi onun üçün uğur gətirməmişdir. 1915-ci ildə Qallipoli döyüşündə ingilislər məğlub olduqda Y.Çorçill istefa verdi. Lakin Çorçill böyük vətənpərvər olaraq qalırdı. 1933-cü ildə Hitlerin, nasistlərin hakimiyyətə gəlməsi Böyük Britaniya imperiyası üçün böyük təhlükə olduğunu hiss edərək, icmalar Palatasının üzvü kimi ardıcıl olaraq bu təh-lükəyə cavab olaraq ordu quruculuğuna diqqəti artırmağı tələb etsə də, Hitlerlə sülhün mümkün olmasına çox inanan Baş nazir Nevill Çemberlen parlament üzvü-nün xəbərdarlıqlarını qulaqardına vurmuşdu.

1938-ci ilin sentyabrında Çemberlen Çexoslovakiyanın işğalına yol açan biabırçı Münhen sazişinə imza atdıqdan sonra Londona qayıtdıqda, hava limanında əlindəki kağız parçasını göstərib, İngiltərəyə sülh gətirdiyini lovğalıqla bildirmişdi. Çorçill isə parlamentdəki çıxışında bunu alçalma və müharibəni seçmək kimi qiy-mətləndirərək demişdi ki, siz əvvəlcə alçalmanı seçdiniz, müharibəni gözləmək də çox çəkməyəcəkdir. Onun peyğəmbərliyi həqiqətə çevrildi, düz bir il sonra Hitlerin Polşaya müdaxiləsi ilə II Dünya müharibəsinə start verildi.

1940-cı ilin mayında Çorçill Baş nazir təyin edildi, bundan bir qədər əvvəl o, Admiralteystvoya başçılıq etmişdi. Üç gün sonra keçirilən parlament iclasında o, ölkədə son ingilis qalana qədər quruda, suda, havada Hitler nasizminə qarşı müba-rizə aparılacağını bildirməklə, xalqa yağlı vədlər verməyib, dedi ki, mən yalnız ağır zəhmət, tər və qan axıtmağı vəd edirəm.

1940-cı ilin iyununda Fransa məğlub olduqdan sonra, 1922-ci ildə Hitlerin vəd etdiyi SSRİ-yə dəhşətli basqının başlanmasına qədər, bir il müddətində Böyük Britaniya Hitler ordusunun hava və dəniz hücumlarını təkbaşına sinə gərdi və görünməmiş bir dözümlülük göstərdi. Fransa məğlub olduqdan sonra isə onun donanmasının Almaniyanın əlinə keçməməsi üçün, ağıla gəlməyən bir hərəkətə əl atdı, atəşlə fransız gəmilərini batırdı.

Bir fakta da Telman Orucov aydınlıq gətirir: Yaxud XX əsrin 30-cu illərində ingilis qadınları sərxoşluğa və alkoqolizmə qarşı mübarizəyə başlayırlar və bu işdə Çorçillin nüfuzundan istifadə etməyi qərar alırlar. Böyük siyasətçi onları iri, hün-dür bir otaqda qəbul edir. Onların xahişini eşitdikdə deyir ki, mən otağın müəyyən həcmi ölçüsündə, Sizin başınız hündürlüyü səviyyəsinə olan qədər spirtli içki içmişəm, Sizə söz verirəm ki, ölənə qədər bütün otağın həcmi qədər içim. Qadınlar kor - peşiman qayıdır və təşəbbüslərinin nəticə verməyəcəyi qənaətinə gəlirlər.

***(Ardı var)***

Hürriyyət

Fakt

SİZİN ÜÇÜN QƏZET

№03 (3342) 21 Yanvar / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Qərbi Azərbaycanın Türk-Müsəlman əhalisi




## (II Dünya müharibəsində iştirak edənlər)

**İkinci Dünya müharibəsi başlayanda (1939-cu ilin sentyabr ayında) Qərbi Azərbaycanın ümumi əhalisinin sayı 1 milyon 390 min nəfər olmuşdur. Bölgənin etnomilli tərkibində üstünlük təşkil edən (80%-dən çox) Türk-Müsəlman əhalisinin 300 min nəfərdən çoxu döyüş cəbhələrinə göndərilmiş, onlardan 200 min nəfəri isə geri dönməmişdir.**

Göyçə gölü hövzəsinin cənub-şərq hissəsində Basarkeçər nahiyəsinin Daşkənd, Qoşabulaq, Sarı Yaqub və Nərimanlı kəndlərinin əhatəsində/qonşuluğunda yerləşən Qayabaşı kəndinin əhalisi 1939-1940-cı illərdə 400 nəfərə yaxın (50-60 ev) olub, kəndin kökənli Türk-Müsəlman camaatı əkinçilik və heyvandarlıqla məşğul idi.

II Dünya müharibəsi cəbhəsinə bu kənddən 150 nəfərə yaxın soydaşımız yola salınmış, onlardan yalnız 30-35 nəfəri yaralı və ya sağ-salamat geri qayıtmışdır.

Müharibədən qayıtmayanlar:

1.Yusif Cəlil oğlu Nağıyev (1910-1943) - 3 oğlu qalıb (cəbhəyə yola düşdükdən 1 ay sonra dünyaya gələn oğluna onun adı verilib), əsir düşərgələrində qalıb, Latviya torpağında dəfn edilib;

2. Hacı Hüseyn oğlu (əslən qonşu Qarabulaq kəndindən olub, 1 oğlu qalıb;

3. Qulu Xəlil oğlu Xəlilov (1920-1942) - 2 oğlu, 1 qızı qalıb;

4. Hacı Hüseyn oğlu Məmmədov (1918-1943)- 1 uşağı qalıb, qonşu Qoşabulaq kəndindən idi, Qayabaşı kəndinə köçmüşdü;

5. Hətəm Oruc oğlu Məmmədov (1913-1945)-SSRİ-nin Cənubi Azərbaycandakı hərbi hissələrində qulluq edib.

Müharibədən qayıdanlar:

1. Nəsib Cəlil oğlu Nağıyev (1915-1968) - Gəncə şəhəri, Tatlı kəndində yaşayıb, doğma kəndində dəfn edilib;

2. Qabil Məhəmməd oğlu Nağıyev (1923-1976)-Qara dənizdə hərb gəmisinin vurulması nəticəsində, bir həftə suda qalıb, kənddə dəfn edilib;

3. Mirzalı Abdulla oğlu Şabanov (1886-1976)-uzun müddət kənd orta məktəbinin direktoru işləyib, sonra Özbəkistan Respublikasının Almalıq şəhərində, eyni adlı kənddə yaşayıb və orda dəfn edilib;

4. Xalid Abdulla oğlu Süleymanov (1904-1994) - kapitan olub, məcburi qaçqın həyatını Şəmkir rayonu, Bada kəndində yaşayıb və orada dəfn edilib;

5. Məhəmməd Allahverdi oğlu Sərdarov (1903-1993) - yaralı qayıtmışdır, Gəncə şəhərindəki İnternat/Qocalar evində yaşamış, orada vəfat etmişdir;

6. Fərhad Əsxas oğlu Qasımov (1906-1976) - kənddə dəfn edilib;

7. Əli Əlxas oğlu Qasımov (1905-1993) - yaralı qayıtmışdır, qaçqın həyatını Yevlax rayonu, Aran qəsəbəsində yaşayıb, orada dəfn edilib;

8. Behbud Məhəmməd oğlu Nağıyev (1920-1994) - İsmayıllı rayonu, Qubaxəlilli kəndində yaşayıb, orda dəfn edilib;

9. Şamil Nağı oğlu Nağıyev (1911-1986) - kənddə dəfn edilib;

Qeyd edək ki, 1989-cu ildə hay kilsəsinin təzyiqi ili məcburi olaraq Bakı, Sumqayıt, Gəncə...şəhərlərinə, Abşeron, Gədəbəy, Goranboy, Şəmkir...rayonlarına köçən Qayabaşı kənd sakinlərindən Müşfiq (1972) və Elçin (1975) Həsən oğlu Məmmədov qardaşları I Qarabağ müharibəsində iştirak etmişlər.

II Qarabağ müharibəsində isə əslən Qayabaşı kəndindən və Qazi ailəsindən olan İlqar Müşfiq oğlu Həsənli (1998) və Rəhman Elçin oğlu Məmmədov (2001) Kəlbəcər, Ağdərə, Füzuli və Laçın rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişlər.

Bu döyüşlərin həmkəndli Qazisi Babək Ənvər oğlu Məmmədov (1975-2022) Abşeron rayonu ərazisində yol qəzasında vəfat etmişdir. Onun oğlu, Cavid Babək oğlu (2006) Bakı Ali Hərbi Məktəbdə təhsil alır...

Basarkeçər nahiyəsinin Pəmbək kəndi Göyçə gölünün cənub-şərq hissəsində eyni adlı çayın mənsəb hissəsində, göldən 1-2 km aralı alçaq yüksəkli və dağətəyi ərazidə, Babacan və Dərəkənd kəndləri ilə qonşuluqda yerləşir.

1939-1940-cı illərdə Pəmbək kəndində 35-40 ev olub, 300 nəfərə qədər əhalisi yaşayıb. Onlarda 70 nəfəri müharibəyə yola düşsə də, qanlı-qadalı cəbhədən yalnız 30 nəfəri geri qayıdıb...

Müharibədən qayıtmayanlar:

1. Məsim Əhməd oğlu Nəsibov (1918-1943)- subay olub;

2. Yusif Əhməd oğlu Nəsibov (1917-1942)- subay olub;

3. Növzalı Allahverdi oğlu Alıyev (1920-1942)-subay oiub;

4. Məlikalı Abdulla oğlu Hüseynov (1923-1942)-subay olub;

5. Qərib Həşim oğlu Kazımov (1921-1943)-subay olub;

6. Sayad Rzaqulu oğlu İrəşov (1920-1943)-subay olub;

Müharibədən qayıdanlar:

1. Gülmalı Məmməd oğlu Bayramov (1918-2021)-Abşeron rayonu, Mehdiabad qəsəbəsində dəfn edilib;

2. Məhəmməd Xələf oğlu Xələfov (1923-1978)-kənddə dəfn edilib;

3. Zaman Allahverdi oğlu Alıyev (1924-2004)-Gəncə şəhərində yaşayıb, orada dəfn edilib;

4. Qurban İsa oğlu İsayev (1921-1976)- kənddə dəfn edilib;

5. Ələsgər İsa oğlu İsayev (1923-1978)- kənddə dəfn edilib;

**Qismət YUNUSOĞLU,**
**Bakı Dövlət Universitetinin müəllimi**

***Qeyd: Yazının hazırlanmasında həm də Abşeron rayonu, Çaylı kəndində yaşayan Qayabaşı kənd sakinlərindən Həsən İsmayıl oğlu Əliyevin (1945), Şahsuvar İsmayıl oğlu Nağıyevin (1953) və Pəmbək kənd sakini Fəxrəddin Əhməd oğlu Nəsibovun (1956) məlumatlarından istifadə olunmuşdur.***



Məğrur Bədəlsoy

# Məhkəmələrin bir-birinə zidd qərarları

## Ali Məhkəmə Plenumu: "Əlavə qətnamə çıxarılmasından imtina olunması şəxsi eyni tələblə məhkəməyə müraciət hüququndan məhrum etmir"

## Rayon məhkəməsi: "Eyni tələblə olduğundan, məhkəməyə müraciət hüququ yolverilməzdir"

Ali Məhkəmə Plenumunun qərarları məhkəmələrə baxdıqları işlər üzrə hansı normativ hüquqi aktın tətbiq edilməli olduğunu izah edir, məhkəmə təcrübəsinin vahidliyi prinsipini formalaşdırır. Nə yazıq, bir çox hallarda Ali Məhkəmə hakimlərinin özləri də Plenumun qərarlarına saygısızlıq sərgiləyirlər. Aşağı instansiya məhkəmələrindən heç danışmağa dəyməz, gerçəkdə Ali Məhkəmə Plenumunun qərarlarını "boykot" edirlər. Onda bu qərarların qəbul edilməsinə nə ehtiyac?

Yalnız şəxsiyyət vəsiqəsi ilə müəyyən olunan yaşayış yeri üzrə Nərimanov rayon məhkəməsinə verilən "hərbi xidmət dövründə döyüşlərdə yaralanma, müalicədə olma barədə sənədlərin şəxsə məxsus olması hüquqi faktının müəyyən olunmasına dair" ərizənin "bəxti il yarımdır açılmır". Hakim Ramin Quliyev ərizəçinin təqdim etdiyi 4 sübutun 3-ü üzrə qətnamə çıxarmadığından, MPM-in 229.1.1-ci maddəsi əsasında əlavə qətnamə çıxarılmasına ərizə verilib. Hələ də ərizəyə baxılmayıb, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası isə 29.10.2024-cü il tarixli qərardadla əlavə qətnamə çıxarılmasından imtina edib.

Ərizəçi Ali Məhkəmə Plenumunun "Məhkəmə qətnaməsi haqqında" Qərarının 15.4-cü bəndi əsasında eyni tələblə məhkəməyə müraciət etmək hüququndan yararlanıb: "Əlavə qətnamə çıxarılmasından imtina olunması maraqlı şəxsi EYNİ TƏLƏBLƏ ümumi qaydada MƏHKƏMƏYƏ MÜRACİƏT etmək HÜQUQUNDAN MƏHRUM ETMİR". Di gəl, yalnız Nərimanov məhkəməsinə verilə bilən ərizələri məhkəmə hakimləri (Mehriban Əfəndizadə, Solmaz Ədilova, Nərgiz Tağıyeva) EYNİ TƏLƏBLƏ olduğundan YOLVERİLMƏZ sayırlar. Absurd situasiyadır, Ali Məhkəmə Plenumu EYNİ TƏLƏBLƏ məhkəməyə müraciət etməyi qanuni HÜQUQ sayır, aşağı məhkəmə EYNİ TƏLƏBLƏ olduğundan bu HÜQUQA yolverilməzliyinə görə qadağa qoyur. Ərizəçi EYNİ TƏLƏBLƏ məhkəməyə müraciət etməyi sürdürür, aşağı məhkəmənin Ali Məhkəmə Plenumuna əməl etməyə borclu olduğunu bildirir, hələ də nə borc yada düşür, nə and, nə də Plenum. Ərizələri ayrı-ayrı hakimlər EYNİ TƏLƏBLƏ olduğundan yolverilməz sayır. Bu isə Konstitusiyanın özünün yolverilməzliyi anlamına gəlir.

İndi söz Ali Məhkəmədə, Məhkəmə Hüquq Şurasındadır. Hansı üstündür? Ali Məhkəmə Plenumunun "EYNİ TƏLƏBLƏ şəxsin məhkəməyə müraciət etmək HÜQUQU", yoxsa rayon məhkəməsinin "EYNİ TƏLƏBLƏ olduğundan məhkəməyə müraciət etmək HÜQUQUNUN YOLVERİLMƏZLİYİ"?